RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 197 (8513) BAZAR, 27 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Azərbaycan Prezidentinin hücum diplomatiyası Ermənistanın ifşasını sürətləndirir

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh danışıqları yolu ilə həlli istiqamətində atılan siyasi addımlar beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Çünki bütün dünya, dövlətlər və təşkilatlar işğal altında olan Dağlıq Qarabağı və ətraf rayonları Azərbaycan torpağı kimi tanıyır. Ona görə hələ 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrdə işğal olunmuş torpaqların qeyd-şərtsiz boşaldılması tələb olunur.

### Ən gözəl nümunəni İlham Əliyev ortaya qoyur

Münaqişənin həlli istiqamətində Azərbaycan Prezidentinin qarşıya qoyduğu əsas vəzifələrdən biri hücum diplomatiyasının həyata keçirilməsi və bu çərçivədə erməni yalanlarını, düşmənin işğalçılıq siyasətini davamlı şəkildə dünya ictimaiyyətinə çatdırmaqdır. Bu məsələdə ən gözəl nümunəni elə cənab İlham Əliyevin özü yaradır. Belə ki, bu günlərdə Prezident İlham Əliyev BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda, BMT Baş Assambleyasının 75-ci Sessiyasının ümumi debatlarında çıxışları zamanı Ermənistanın 30 ildir davam edən işğal siyasəti ilə bağlı bütün məsələləri ətraflı şəkildə, faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Eyni zamanda Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarla söhbət zamanı Prezident İlham Əliyev diqqəti əsasən Ermənistanın davam edən işğalçılıq siyasətinə və son vaxtlar güclənən hərbi ritorikasına yönəltdi.

Dövlət başçısının çıxışları və görüşü zamanı qeyd etdiyi bütün məsələlər Ermənistanın işğal siyasəti yürütdüyünü göstərən real faktlardır. Qeyd edildi ki, Paşinyanın "Qarabağ Ermənistandır" deməsi, Dağlıq Qarabağda qondarma seçkilərin keçirilməsi, Tovuza hücum edilməsi, Livan ermənilərinin işğal olunmuş Azərbaycan ərazilərinə köçürülməsi, Goranboy rayonu istiqamətində diversiyaya cəhdi, Ermənistanda könüllü mülki hərbi birləşmənin yaradılmasına başlanılması kimi təxribatçı əməllər danışıqlar prosesini lüzumsuz hala saldı.

Ardı 3-cü səh.

## Dostluq və əməkdaşlıq münasibətləri bu gün siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrimizin yeni məzmunu ilə zənginləşir

### Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı - Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizə və dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Çin Xalq Respublikasının bütün sahələrdə əldə etdiyi uğur və nailiyyətlərini, ölkənizin dünyanın aparıcı dövlətlərindən birinə çevrilməsini və beynəlxalq arenada nüfuzunun gündən-günə artmasını daim məmnunluqla izləyirik.

Biz qədim tarixə malik Azərbaycan-Çin münasibətlərinin hərtərəfli inkişafına mühüm əhəmiyyət veririk. Ölkələrimizi və xalqlarımızı birləşdirən ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bu gün siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrimizin yeni məzmunu ilə zənginləşir. Şübhəsiz ki, bu sıx əməkdaşlıq müəllifi olduğunuz "Kəmər və yol" layihəsi çərçivəsində də uğurla davam edəcəkdir.

Bəşəriyyətin üzləşdiyi COVID-19 pandemiyasının ilk günlərindən ölkələrimizin nümayiş etdirdiyi həmrəylik və qarşılıqlı dəstək ikitərəfli əlaqələrimizin möhkəm təməl üzərində qurulduğunu bir daha isbat etdi. Fürsətdən istifadə edərək koronavirus xəstəliyi ilə mübarizə məqsədilə Çin Xalq Respublikası tərəfindən ölkəmizə göstərilən dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Əminəm ki, xoş ənənələrə əsaslanan Azərbaycan-Çin dostluq və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri birgə səylərimizlə bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 sentyabr 2020-ci il*

## Prezident İlham Əliyevin ardıcıl qələbələri

### Ermənistanın siyasi və hərbi rəhbərliyi təşviş içindədir

Hazırda Azərbaycanla Ermənistan arasında münasibətlər son dərəcə gərgindir. Səbəb işğalçı dövlətin son dövrlər həyata keçirdiyi daha aqressiv siyasətlə bağlıdır.

Nikol Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı faktiki olaraq danışıqları pozdu. Bununla yanaşı, sərhədin Tovuz istiqamətində mövqelərimizə hücum etməklə yeni ərazilərimizi işğal etmək istədi. Lakin Azərbaycan Ordusu tərəfindən endirilən sarsıdıcı zərbələr nəticəsində böyük itkilər verərək geri çəkildi.

Ardı 3-cü səh.

## Dünyanın neft tarixi Azərbaycandan - Balaxanı və Bibiheybət mədənlərindən başlanır







### Dənizdən də "qara qızıl"ı ilk dəfə bizim neftçilər çıxarıb

Bütün dünya bilir ki, Azərbaycan neftin vətənidir. Bakının Balaxanı və Bibiheybət əraziləri tarixə ən qədim neft mərkəzləri kimi düşüb. Dünyada ilk neft quyuları burada qazılıb, neft hasilatına buradan başlanıb. Bu il sentyabrın 23-də Prezident İlham Əliyev Bakının Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olarkən bunları bir daha xatırladıb.

Dövlət başçısı hazırda həmin yerlərin ekoloji fəlakət zonasından ekoloji cənnət zonasına çevrildiyini qeyd edib. Bu işin insanların sağlamlığına, ümumiyyətlə, neft gəlirlərinin xalqımızın rifahına, daha xoş gələcəyinə xidmət etdiyini vurğulayıb: "Hələ Prezident kimi fəaliyyətə başlayanda ilk aylarda bunu demişdim ki, "qara qızıl"ı insan kapitalına çevirməliyik. Bax, budur, "qara qızıl" insan kapitalıdır. İnsanların rifah halı, sağlamlığı, rahatlığı, təhlükəsizliyi üçün biz neftdən gələn gəlirlərdən istifadə etdik. Deyə bilərəm ki, bu gün biz neftlə zəngin ölkələr sırasında bu siyasətə görə dünya miqyasında qabaqcıl yerlərdəyik. Aparıcı beynəlxalq maliyyə qurumları da qeyd edirlər ki, Azərbaycanda neft insanların rifah halının yaxşılaşmasına xidmət göstərir. Çünki indi yoxsulluğun, işsizliyin azaldılması bunun bariz nümunəsidir. Neftlə zəngin olan ölkələrdə bəzi hallarda işsizlik baş alıb gedir. Səfalət, sosial ədalətsizlik və digər problemlər o ölkələrin cəmiyyətlərində ciddi hal alır. Amma Azərbaycanda neft insanların rifahına, ölkəmizin inkişafına xidmət göstərir".

Ardı 4-cü səh.

## Ermənistan ordusunda özbaşınalıq hökm sürür

Ermənistanın təxribatçı fəaliyyəti Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həllinə əsas maneə olaraq qalır. Xüsusən baş nazir Nikol Paşinyanın təxribatçı açıqlamaları ilə danışıqların formatını və mahiyyətini dağıtması məsələni daha mürəkkəb müstəviyə yönəldib. Bunun səbəblərindən biri faktiki olaraq Ermənistanda inqilabi diktatura quran, müxalifət nümayəndələrinin, hər hansı əks fikir söyləyən şəxslərin susdurulması və şantaj edilməsi ilə daxili problemləri artıran Paşinyanın cəmiyyətin diqqətini yayındırmaq cəhdləridir.

Digər tərəfdən Paşinyan iqtidarının koronavirusa qarşı apardığı mübarizənin iflasa uğraması göz qabağındadır. Çaşqın vəziyyətə düşən baş nazir erməni cəmiyyətinin diqqətini yayındırmaq üçün təxribatçı və ziddiyyətli açıqlamalar verir. Azərbaycan Xarici İşlər Nazirliyinin verdiyi məlumatda da deyilir ki, Ermənistanda hakimiyyətə gəlməsindən 2 il ötən Paşinyan bu günə kimi 30 təxribatçı fəaliyyət həyata keçirib. Bunlar həm də onun təsdiqidir ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün ondan olan gözləntiləri puça çıxaran Paşinyan sələflərinin ilhaqçı siyasətini təkrarlayır.

Xatırladaq ki, ötən ilin mart ayında Ermənistanın müdafiə naziri Davit Tonoyan Nyu Yorkdakı erməni icması ilə görüşündə "sülh üçün ərazilər" yanaşmasının tətbiq olunmayacağını bildirmiş, "yeni ərazilər üçün yeni müharibə" fikrini söyləmişdi. Göründüyü kimi, Paşinyanın rəhbərliyi altında Ermənistanın "yeni ərazilər üçün yeni müharibə"ni nəzərdə tutan və danışıqlar prosesində bu ölkənin strateji məqsədinin müharibənin nəticələrini qoruyub saxlamaqdan ibarət olduğunu müəyyən edən hərbi strategiya qəbul etməsi Dağlıq Qarabağ münaqişəsinin güc yolu ilə həllini qaçılmaz edir.

Ardı 8-ci səh.



## Pambıqyığan maşınlar start xəttindədir

### Əl ilə yığım davam edir

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində dövlət səviyyəsində məqsədyönlü silsilə tədbirlər uğurla davam edir.

Bu sırada aqrar sektora böyük önəm verilir. Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələri inkişaf etdirmək, xüsusilə pambıqçılıqda, üzümçülükdə, baramaçılıqdakı əvvəlki şöhrəti qaytarmaq barədə tapşırıq və tövsiyələrinin nəticələri Azərbaycan kəndində son illər fərqli mənzərə yaratmışdır.

Strateji məhsul olan pambığa dəyişən münasibət kəndlini torpağa qaytarmışdır. İndi kəndlərimizdə nə bir qarış boş torpaq sahəsi var, nə də işsiz bir adam. Halal qazanc mənbəyinə çevrilən torpağa kənd əhalisi indi çörək təhnəsi, xoş güzəran, firavan həyat mənbəyi kimi baxır.

Hələ sovet dönəmində qabaqcıl pambıqçılıq mərkəzi kimi şöhrət qazanmış Bərdənin iqtisadiyyatında bu sahənin xüsusi yeri var. Pambıqçılıq sahəsində zəngin təcrübəyə malik əmək qabaqcılları öz bilik və bacarıqlarını yeni nəslə məmnunluqla ötürürlər. İndi yaxın keçmişin əmək qəhrəmanları - Qulam Cavadovun, Hümbət Əliyevin, adlı-sanlı sürücü-mexanik Tərlan Musayevanın layiqli davamçıları yetişməkdədir.

Keçən təsərrüfat ilində rayonda 10140 hektar sahədə pambıq əkilib-becərilmiş, hər hektardan 33,4 sentner məhsul götürülməklə 33,850 ton məhsul istehsal olunmuşdur. Cari ildə isə rayonun təsərrüfatlarında 10686 hektar sahədə pambıq əkilmişdir.

Ardı 5-ci səh.

## Azərbaycan bu dəfə də birincilərdən olacaq

Ötən ilin sonundan etibarən dünyaya sürətlə yayılan koronavirus infeksiyasına görə yaranmış pandemiya əksər ölkələrin səhiyyə və iqtisadiyyatını böhran vəziyyətinə salıb. Pandemiya davam etdiyi müddətdə bir çox sərt karantin tədbirləri və müalicə metodları tətbiq edilsə də, güclü mübarizə sistemləri hələ hazır deyil.



Yoluxdurucu xəstəliklərə səbəb olan digər viruslardan fərqli olaraq, COVID-19 mutasiya olur, yoluxdurucu gücü artır. Epidemioloji vəziyyətə nəzarət edə bilmək üçün isə yumşaq karantin tədbirləri davam etdirilir, əhalinin hədəf qruplarının vaksinasiyası aparılır.

Aylardır bəşəriyyət bu təhlükəli bəladan qurtulmaq üçün bütün ümidlərini peyvəndə bağlayıb.

Ardı 4-cü səh.

# Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident.

Xarkov vilayətində hərbi təyyarənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 26 sentyabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1841; 2019, № 5, maddə 822, № 10, maddələr 1586, 1588) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.30-1-ci yarımbənd əlavə edilsin:

"3.0.30-1. turizm və mehmanxana (o cümlədən mehmanxana tipli digər obyektlər) fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektləri və onların vəzifəli şəxsləri tərəfindən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirmək;".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2020; 2018, № 5, maddə 896; 2020, № 4, maddə 405) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.14-2-ci yarımbənd əlavə edilsin:

"3.0.14-2. ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri və onların vəzifəli şəxsləri tərəfindən epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirmək;".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*

## "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 iyul tarixli 1084 nömrəli, 10 iyul tarixli 1105 nömrəli və 17 avqust tarixli 1138 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 6.0-cı bəndinə "sahibkarlıq fəaliyyəti" sözlərindən sonra "(ictimai iaşə, turizm və mehmanxana (o cümlədən mehmanxana tipli digər obyektlər) fəaliyyəti istisna olmaqla)" sözləri əlavə edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1117 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2.1-ci yarımbəndə "daxil edilməsi," sözlərindən sonra "ailə kəndli təsərrüfatı üzvlərinə vəsiqələrin təqdim edilməsi," sözləri əlavə edilsin.
2. 5.1.24-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.1.25-ci yarımbənd əlavə edilsin:

"5.1.25. uçota alınmış ailə kəndli təsərrüfatı üzvlərinə vəsiqələrin təqdim edilməsi barədə məlumatlar.".

3. 7.1.5-ci yarımbəndin 3-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.1.6-cı yarımbənd əlavə edilsin:

"7.1.6. yerli özünüidarəetmə orqanı:
1. qeydiyyatdan keçmək;
2. elektron kabinetdən istifadə etmək;
3. uçota alınmış ailə kəndli təsərrüfatı üzvlərinin statusu, əmək fəaliyyəti və əmək stajı barədə məlumatları daxil etmək.".

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 21 sentyabr 2020-ci il*

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 iyul tarixli 1083 nömrəli, 10 iyul tarixli 1100 və 1104 nömrəli, 10 avqust tarixli 1124 nömrəli, 11 avqust tarixli 1129 nömrəli fərmanları) 5.6-2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5.6-2. həmin Məcəllənin 211-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə həmin işlər üzrə inzibati icraata başlamış Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, sahibkarlıq fəaliyyəti (ictimai iaşə, turizm və mehmanxana (mehmanxana tipli digər obyektlər daxil olmaqla) fəaliyyəti istisna olmaqla) subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə, həmçinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, ictimai iaşə sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə, həmçinin Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, turizm və mehmanxana (mehmanxana tipli digər obyektlər daxil olmaqla) fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinə və onların vəzifəli şəxslərinə münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi baxır;".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 24 sentyabr 2020-ci il*

## Prezidentin cəbhəboyu yaşayış məntəqələrində infrastrukturun təkmilləşdirilməsinə dair tapşırığı icra olunur

Prezident İlham Əliyevin tapşırığına əsasən Baş Nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə müvafiq qurumların nümayəndələri Tovuz, Ağstafa və Qazax rayonlarının cəbhəboyu yaşayış məntəqələrində olub.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hökumət nümayəndələri cəbhəboyu yaşayış məntəqələrində içməli su, qaz, elektrik enerjisi ilə təminat, məktəb və tibb məntəqələrinin vəziyyəti ilə tanış olublar.

Cəbhəboyu yaşayış məntəqələrində kommunal və sosial infrastrukturun təkmilləşdirilməsi və yenilərinin yaradılmasına dair konkret layihələr müzakirə olunub, müvafiq qurumlara konkret tapşırıqlar verilib.

Cəbhəboyu bölgələrdə həyat üçün zəruri olan infrastrukturun yaxşılaşdırılması hökumətin prioritetləri sırasındadır.

## Azərbaycan və Avropa İttifaqı qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsində maraqlıdır



Sentyabrın 26-da Xarici İşlər naziri Ceyhun Bayramov Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Tərəflər Azərbaycan və Avropa İttifaqı arasında mövcud olan faydalı əməkdaşlıq münasibətlərinə dair fikir mübadiləsi aparıblar. Bu münasibətlərin daha da inkişaf etdirilməsində qarşılıqlı maraq olduğu vurğulanıb.

Nazir Ceyhun Bayramov yalnız Azərbaycan deyil, eləcə də bölgənin təhlükəsizliyi üçün ciddi təhdid olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri barədə qarşı tərəfə məlumat verib. Bölgədə müşahidə olunan gərginlikdən danışan nazir Ermənistan tərəfinin son zamanlar həyata keçirdiyi silsilə təxribat xarakterli əməlləri, o cümlədən iyulun 12-16-da Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin əvvəlcədən planlaşdırılan hücum cəhdi, avqustun 23-də Goranboy rayonu istiqamətində Ermənistanın diversiya-kəşfiyyat qrupunun təxribatı, Livan ermənilərinin Azərbaycanın işğal edilmiş ərazilərində yerləşdirilməsi və digər təhrikçi fəaliyyəti haqqında danışıb. Ermənistan rəhbərliyinin bu addımlarının münaqişənin danışıqlar yolu ilə həlli prosesinə zərbə vurduğu qeyd olunub. Beynəlxalq ictimaiyyətin bu məsələdə qətiyyətli mövqe nümayiş etdirməsinin və işğalçı Ermənistana birmənalı ismarışlar göndərməsinin vacibliyi vurğulanıb.

Xüsusi nümayəndə Toivo Klaar münaqişənin sülh yolu ilə həlli üçün hər hansı qeyd-şərt irəli sürülmədən substantiv danışıqların aparılmasının vacibliyini qeyd edib. O, həmçinin Aİ-nin bundan öncə olduğu kimi tərəflər arasında etimadın yaradılması tədbirlərini həyata keçirməyə hazır olduğunu bildirib.

Nazir Ceyhun Bayramov bunun üçün müvafiq məqamın yetişməsinin önəmli olduğunu vurğulayaraq, ilk növbədə, Azərbaycan ərazilərinin işğalının nəticələrinin aradan qaldırılmasının zəruriliyini qeyd edib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Baş prokuror və hərbi prokuror cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, respublika hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev və Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olublar.







Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad olunub.

Müdafiənin ön xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşlərdə döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətin daha da yaxşılaşdırılması, hərbi kollektivlərdə münasibətlərin qanunvericilikdə nəzərdə tutulan tələblər və nizamnamələr çərçivəsində qurulması, şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, o cümlədən digər məsələlər barədə söhbətlər aparılıb.

Hərbi qulluqçularla görüşlər zamanı Silahlı Qüvvələrin Ali Baş Komandanının ordu qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətin diqqətinə çatdırılıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqəti, qayğısı və birbaşa rəhbərliyi nəticəsində Azərbaycan Ordusunun inkişafı və ölkənin hərbi qüdrətinin artırılması sahəsində əldə olunan nailiyyətlərdən danışılıb.

K.Əliyev hərbi xidmətdə fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edib.

Sonra hərbi qulluqçularla birgə nahar edilib və çay süfrəsi arxasında onları maraqlandıran suallar cavablandırılıb.



## "Msta-S" özüyeriyən haubitsalardan döyüş atışları keçirilir

Azərbaycan Ordusunun raket və artilleriya qoşunlarının "Msta-S" özüyeriyən haubitsa heyətləri ilə döyüş hazırlığı məşğələləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyəcan siqnalı ilə qaldırılan heyətlər atəş mövqelərinin dəyişilməsi və şərti döyüş zamanı düşmən hədəflərinin koordinatlarının təyin edilməsi tapşırıqlarını yerinə yetiriblər.

Döyüş atışları icra edən heyətlər şərti düşmənin müxtəlif məsafələrdə yerləşən hərbi texnikası və mühəndis fortifikasiya qurğularını məhv ediblər.



## Atəşkəs rejimi 48 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 48 dəfə pozub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Nerkin Karmirağbur, Ayqepar, Mosesqex, Çinari, Ayqedzor kəndlərində və Çəmbərək rayonunun Cil kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Hacallı, Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

***AZƏRTAC***

## Daha 6 şəhid ailəsi və Qarabağ müharibəsi əlili evlə təmin olunub

Ağstafa rayonunda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin inşa etdirdiyi 6 fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim olunub. Bununla bağlı keçirilən tədbirdə nazirliyin və Ağstafa Rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.



Çıxışlarda bildirilib ki, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzillə təminatı ildən-ilə genişləndirilir. Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626, ötən il 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi istiqamətində tədbirlər davam edir.

Qeyd olunub ki, ümumilikdə ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8186 mənzil və fərdi ev təqdim edilib.

Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onlara göstərilən yüksək qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Anadolu Agentliyi Ermənistanın atəşi altında yaşayışın davam etdiyi Azərbaycan kəndi Əlibəylidən reportaj hazırlayıb

Azərbaycana qarşı hərbi hücum cəhdlərini davam etdirən Ermənistan, sadəcə, hərbçiləri deyil, mülki əhalini də hədəf alır. Sərhəddə yerləşən Tovuz rayonunun Əlibəyli kəndi Ermənistan birliklərinin davamlı atəşə tutduğu yaşayış yerlərinin hamısından öndə yerləşir.




AZƏRTAC xəbər verir ki, Türkiyənin Anadolu Agentliyinin yaydığı "Əlibəyli - Ermənistanın atəşi altında yaşayışın davam etdiyi Azərbaycan kəndi" sərlövhəli reportaj bu ifadələrlə başlayır. Reportajda Əlibəyli kəndinin coğrafi quruluşundan, yerli sakinlərin yüksək əhvali-ruhiyyəsindən bəhs olunur. Müxbir yerli sakinlər, eləcə də şəhid ailələri ilə söhbət əsasında yazır ki, Əlibəyli sakinləri 1990-cı illərdə də ermənilərin silahlı hücumlarına mərdliklə sinə gəliblər. İnsanlar göstərilən qardaşlıq dəstəyinə görə Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə xalqına təşəkkürlərini ifadə ediblər.

Diqqətə çatdırılır ki, Azərbaycan və Türkiyənin liderliyi ilə gerçəkləşən kommunikasiya xətləri bu bölgədən keçir.

# Azərbaycan Prezidentinin hücum diplomatiyası Ermənistanın ifşasını sürətləndirir

Əvvəli 1-ci səh.

Sentyabrın 25-də Bakıda səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edən Prezident İlham Əliyev bu barədə deyib: *“Onların bu cür davranmaq imkanında olmasının səbəbi ondan ibarətdir ki, onları dayandıran yoxdur. Minsk qrupunun həmsədrləri onları dayandırmır. Minsk qrupunun bəyanatları birbaşa ünvanı olmayan bəyanatlardır. Çünki Azərbaycan heç bir təxribatçı addım atmayıb. Biz dövlət sərhədində onlara hücum etməmişik, diversiya qrupu göndərməmişik, könüllü qoşunun yaradılmasını elan etməmişik, heç bir başqa təxribat törətməmişik. Bütün təxribatlar Ermənistan tərəfindən törədilir və onlar bunu qəsdən edirlər, bunu nümayiş etdirirlər. Onlara beynəlxalq təzyiqin olmaması, - mən bunu Minsk qrupunun həmsədrləri ilə görüşlərdə dəfələrlə qaldırmışam, - çox təhlükəli addımlara gətirib çıxarır ki, bunun da gözlənilməz nəticələri ola bilər”.*

### Yeni müharibə düşmənin məğlubiyyəti ilə başa çatacaq

BMT-nin, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların problemin həllinə dair qərarları qəbul olunandan kağız üzərində qalır. Yaxın tariximizdə dünya ictimaiyyətinin ayrı-ayrı dövlətlərin beynəlxalq hüquqa zidd olan əməllərinə qarşı nəinki siyasi, həm də güc yolu ilə təsir etmələrinə dair çoxsaylı faktlar var. Cəzasız qalan Ermənistan isə bütün dünyanın və Avropanın gözü qarşısında təcavüzkar siyasətini davam etdirir. İşğal nəticəsində nəzarətsiz qalan Dağlıq Qarabağ transmilli cinayətlərin yuvasına çevrilib, Azərbaycan xalqının milli mədəniyyət nümunələri dağıdılıb.

Azərbaycan hərb yolu ilə torpaqlarını azad etmək istəsə, buna çox qısa müddətdə nail olacağı şübhəsizdir. Bunu Ermənistanda da yaxşı anlayırlar. Bakı hələlik məsələnin danışıqlar yolu ilə həllinə dair beynəlxalq çağırışlara hörmətlə yanaşır. Lakin görünən odur ki, Ermənistanın baş nazirinin cəfəng bəyanatları, bu ölkənin təxribat xarakterli addımları danışıqları tamamilə mənasız edib. Eyni zamanda Tovuz döyüşlərindəki məğlubiyyətdən sonra Ermənistan sərhəd və cəbhə bölgələrinə yeni qüvvələr cəmləyir. Hətta başqa dövlətlərdən terror təşkilatlarının yaraqlılarını Azərbaycana qarşı döyüşmək üçün Qarabağa gətirdiyi yayılan məlumatlar sırasındadır. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edən Prezident İlham Əliyev bu barədə deyib: *“Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar”.*

Bəli, yeni müharibənin Ermənistanın məğlubiyyəti ilə başa çatacağı dəqiqdir. 2016-cı ilin Aprel və 2020-ci ilin İyul döyüşləri də Azərbaycanın hərbi üstünlüyünün təsdiqidir.

### Ermənistanın əməlləri beynəlxalq hüquq normalarının pozulmasından ibarətdir

Prezident İlham Əliyev dünyanın ən ali tribunasından etdiyi çıxışlarda Ermənistanın faşist, antiinsani siyasətini, yeni müharibə planlarını ifşa etdi, BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın təcavüzkar siyasətinə son qoymaq üçün əməli tədbirlər görməyə, işğalçının bu hərəkətlərinə müşahidəçi qalmamağa çağırdı. Eyni zamanda inkişaf etmiş Avropa dövlətlərini birləşdirən Avropa İttifaqının rəsmisi ilə söhbətdə vəziyyətin mənfi məcraya doğru getdiyini, Ermənistanın danışıqları pozduğunu, hərbi təxribatlarının müntəzəm xarakter daşıdığını və yeni müharibəyə hazırlaşdığını diqqətə çatdırdı.

Ermənistanın bütün hərəkətləri beynəlxalq hüquq normalarının pozulmasından ibarətdir. Bu ölkə işğalçılıq siyasəti yürütməklə həm BMT-yə, həm də Avropa Şurasına daxil olarkən üzərinə götürdüyü bütün öhdəlikləri kobud şəkildə pozmaqdadır. Hansısa dövlətin ərazi bütövlüyünə qarşı təcavüz, insanların yaşamaq və mülkiyyət hüquqlarını pozmaq dövrümüzün dəyərləri ilə daban-dabana ziddiyyət təşkil edir. Bu baxımdan Azərbaycanın məqsədi beynəlxalq təşkilatların probleme ədalətli yanaşması, Ermənistanın təcavüzkarlığına son qoyulması üçün kəsərli təsir mexanizmlərinin işə salınması, onun yeni təxribatçı əməllərinə hüquqi qiymətin verilməsidir.

Əgər bunlar olmasa yeni müharibənin baş verməsi qaçılmazdır. Azərbaycan isə torpaqlarını müharibə yolu ilə azad etməyə hazırdır. Çünki Ermənistanın işğalçı siyasətinə qarşı təsirli beynəlxalq reaksiyanın olmadığı şəraitdə Azərbaycanın başqa yolu qalmır.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Ermənistan qonşu dövlətlərə olan ərazi iddialarından əl çəkməli, işğalçılıq siyasətinə son qoymalıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında işğalçı ölkə Ermənistan və onun hazırkı rəhbərliyinin iflasa uğrayan siyasətini aydın şəkildə və konkret faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Azərbaycan Prezidentinin səsləndirdiyi həqiqətləri Ermənistan XİN öz cılız açıqlaması ilə dana bilməz.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan XİN-in Azərbaycan Respublikası Prezidentinin BMT Baş Assambleyasında çıxışına dair açıqlamasını şərh edərkən deyib.

Leyla Abdullayeva bildirib: “Hazırda Ermənistan dərin demoqrafik, sosial və iqtisadi böhranla üzləşən bir ölkədir və bunun başlıca səbəbi onun Azərbaycana qarşı təcavüzkar siyasət həyata keçirməsidir. İki il bundan əvvəl Ermənistanda rejim dəyişikliyi baş verməsinə rəğmən hazırkı hakimiyyət də bundan əvvəlki kriminal xunta rejiminin siyasətini davam etdirir. İnsan hüquqlarının geniş pozulduğu, hakimlərin təzyiqə məruz qaldığı, müxalifət fəalları və siyasi opponentlərin həbs edildiyi Ermənistanda diktatura rejimi qurulub. Xalqın mandatını aldığını bəyan edən hakimiyyət elə bu xalqın maraqlarını təmin etməkdən çox uzaqdır.

Əgər Ermənistanın bundan əvvəlki prezidentinin əlləri Azərbaycana qarşı aparılan müharibə çərçivəsində törədilən cinayətlər, xüsusilə də Xocalıda amansız qəddarlıqla öldürülən qadın, uşaq və yaşlıların qanına boyanıbsa, hazırkı rəhbərliyin vicdanında bu ilin 14 iyul tarixində Tovuz rayonunda öldürülən 76 yaşlı şəxsin qan ləkəsi var.

Yalan, saxtakarlıq, riyakarlıq, təxribat və nəhayət, müharibə cinayətləri - budur Ermənistan hazırkı rəhbərliyini xarakterizə edən əsas cəhətlər. Hakimiyyətə gələrkən xalqına verdiyi vədlərin heç birini yerinə yetirməyə iqtidarında olmayan, ölkəni tənəzzülə sürükləyən, siyasi lider və hökumət başçısı kimi iflasa uğrayan bir şəxsin rəhbərlik etdiyi ölkənin Xarici İşlər Nazirliyinin xalqının milli maraqları əsasında müstəqil və uğurlu siyasət həyata keçirən, dünya səviyyəsində nüfuza sahib olan Azərbaycan Respublikasının Prezidenti haqqında cəfəng açıqlama ilə çıxış etməsi yalnız gülüş doğura bilər. Anlayırıq ki, Azərbaycanın əldə etdiyi inkişaf, nailiyyətlər və tərəqqini kənardan qısqanclıqla izləyən Ermənistanın bu kimi sərsəm açıqlamalar verməkdən başqa çarəsi yoxdur.

Xalqının mandatı əsasında hakimiyyətə gəldiyini bəyan edən Ermənistanın hazırkı rəhbərliyi, həmin bu xalqın böhran vəziyyətindən çıxarılması üçün boşboğazlıqla məşğul olmaq yerinə, konkret fəaliyyət nümayiş etdirməli, ilk növbədə isə qonşu dövlətlərə olan ərazi iddialarından əl çəkməli, işğalçılıq siyasətinə son qoymalı və qonşu dövlətlərin beynəlxalq sərhədlərinə hörmətlə yanaşmalıdır. Əks təqdirdə Ermənistan xalqı inkişaf perspektivlərindən məhrum qalacaqdır”.

# Prezident İlham Əliyevin ardıcıl qələbələri

Əvvəli 1-ci səh.

Avqust ayında isə bunun heyfini çıxmaq üçün cəbhənin Goranboy istiqamətində ölkəmizə qarşı təxribat törətmək istədi. Bu hadisənin qarşısı da ordumuzun sayıqlığı sayəsində alındı. Üstəlik, təxribatçı qrupun komandiri əsir götürüldü. Ermənilər həmişə kəşfiyyatçı-diversantları yolu azmış “dəli” və ya “çoban” kimi qələmə verirlər.

Yenə belə bir hiyləyə cəhd etsələr də, bu, baş tutmadı. Çünki əsir götürülən komandir Ermənistan vətəndaşıdır. O, Dağlıq Qarabağ ərazisində “çoban”lıq etmirdi. Özü Ermənistan ordusunun kəşfiyyat-diversiya qrupunun komandiri olduğunu etiraf etdi. Yeri gəlmişkən, qeyd edək ki, hazırda Azərbaycanda tutulub saxlanılan 5-6 “çoban” və “dəli” var. Belə çıxır ki, Ermənistanda olan “çoban” və “dəli”lər mütləq Azərbaycan ərazisinə keçməlidirlər.

Ermənistan cəmiyyəti indi qorxu içindədir. Səbəb Prezident İlham Əliyevin sentyabrın 19-da yerli televiziyalara müsahibə verərkən dediyi sözlər olub. Dövlət başçısı Ermənistan müdafiə nazirinin “yeni ərazilər uğrunda yeni müharibə” fikrinə qarşı bildirib ki, əgər onlar belə bir avantüraya əl atsalar, biz öz siyasətimizə yenidən baxacağıq. Beləliklə, Prezident açıq şəkildə bəyan etdi ki, Tovuz hadisələri zamanı onun bir sözü ilə Azərbaycan Ordusu döyüşləri Ermənistan ərazisində apara bilərdi. Orduya Ali Baş Komandanın əmri lazım idi. Ancaq Azərbaycan tərəfi bunu etmədi. Ancaq bu, belə olmaya bilər.

Bəli, indi ermənilər qorxu içindədirlər. Yaxşı bilirlər ki, hazırda Ermənistanda məsuliyyətsiz adamlar hakimiyyətdədir. Əgər növbəti bir avantüraya getsələr, bu, onlar üçün baha başa gələcək. Çünki Ermənistanda qəbul edilən yeni qanuna görə döyüşlər başlasa, xəstə, qoca, qadın orduda xidmət etməyə məcburdur. Heç bir hərbi təlim keçməyən yaşlı və xəstə adamların döyüşlərdə iştirakı erməniləri dəhşətə gətirir. Onlar dünyanın heç bir yerində belə sərsəm qanunun qəbul olunmadığını da yaxşı bilirlər.

Erməniləri narahat edən başqa bir səbəb isə illərdir aldadıldıqlarının üzə çıxmasıdır. Belə ki, erməni təbliğat maşını onları inandırmışdır ki, Ermənistan ordusu güclüdür, Azərbaycan Ordusuna qarşı istənilən sarsıdıcı zərbəni endirə bilər. İndi məlum olur ki, Ermənistanda belə bir ordu yoxdur, baş verən demoqrafik proseslər nəticəsində onu əsgərlə təmin etmək də çətindir.

Bu üzdən Ermənistanın müdafiə nazirinin və digər siyasətçilərin “qorxma” deməsinə baxmayaraq, erməni cəmiyyətində bir qorxu və xof hökm sürür. Hamı başa düşür ki, Ermənistan rəhbərliyinin atacağı yanlış addım nəticəsində yaxşı silahlanmış, yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun vuracağı zərbədən sonra bu ölkə bir daha ayaq üstə dura bilməz.

Ermənilər təkcə cəbhədə deyil, siyasət və diplomatiya meydanında da uduzur. Prezident İlham Əliyevin apardığı uğurlu, çevik və qətiyyətli siyasət sayəsində Ermənistan yaxın müttəfiqləri tərəfindən belə, açıq şəkildə müdafiə olunmur. Çünki apardığı aqressiv siyasət diplomatik həmlələrlə ifşa edilir. İndi “işlər”i ötən əsrin 90-cı illərindəki kimi getmir. Məsələn, həmin dövrdə bizi şərləyib Azərbaycanla ABŞ arasındakı münasibətləri məhdudlaşdıran 907-ci düzəlişi qəbul etdirə bilmişdi. Bu il isə həmin ABŞ Konqresi tərəfindən Ermənistanı işğalçı ölkə kimi tanıdan sənəd qəbul edildi. Ermənistanın və erməni diasporunun, həmçinin ermənipərəst konqresmenlərin bütün cəhdlərinə baxmayaraq, bu sənəd Konqresdə imzalandı. Bu faktın özü Azərbaycan diplomatiyasının qələbəsi sayılır.

Prezident İlham Əliyev Ermənistana növbəti diplomatik zərbəni sentyabrın 21-də BMT-nin Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr olunmuş Yüksək Səviyyəli İclasda vurub. Dövlət başçısı bu mötəbər tədbirdə iki hissədə - Qoşulmama Hərəkatının sədri və Azərbaycan Prezidenti kimi çıxış etdi. Prezident 120 ölkəni özündə birləşdirən nüfuzlu beynəlxalq təşkilat adından dünyanı narahat edən problemlər barədə danışaraq təkliflərini verdi.

Qoşulmama Hərəkatının sədri kimi BMT-nin tribunasından çıxış edən Prezident İlham Əliyev demişdir: “Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqan kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq”.

Dövlət başçısı nitqinin ikinci hissəsinə “İndi isə mən Azərbaycan adından çıxış edirəm” deyə başladı. Prezident müstəqillik illərində ölkəmizin dövlət quruculuğu, iqtisadi islahatlar, sosial problemlərin həlli sahəsində böyük nailiyyətlər qazandığını bildirdi. Bununla yanaşı, Ermənistanın işğalçılıq siyasətini bir daha BMT-nin ali tribunasından ifşa edərək bildirdi ki, qonşu dövlət BMT-yə qəbul olunarkən Nizamnaməyə görə üzərinə götürdüyü öhdəlikləri - hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini kobud şəkildə pozaraq Azərbaycan torpaqlarını işğal edib.

Prezident İlham Əliyev Ermənistanın çirkin işğalçılıq siyasəti sayəsində ölkəmizin ərazisində törədilən vəhşilikləri qeyd edərək demişdir: “Ermənistan işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmişdir. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Ondan çox ölkə Xocalı soyqırımını tanımışdır. Ermənistan işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirir. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv edib”.

Dövlət başçısı Ermənistanda Azərbaycana qarşı yeni təcavüz və əraziləri işğal etmək üçün on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış könüllü dəstələrin yaradılması faktını dünya ictimaiyyətinə çatdırdı. Ermənistan müdafiə nazirinin “yeni ərazilər uğrunda yeni müharibə” bəyanatının növbəti toqquşmalara səbəb olacağını bildirdi. Çünki ermənilər ölkəmizə qarşı aqressiv siyasətlərindən əl çəkmirlər.

Prezident İlham Əliyevin bu çıxışı sadəcə olaraq beynəlxalq ictimaiyyəti məlumatlandırmaq kimi də görünə bilər. Əslində dövlət başçısı bu barədə ətraflı məlumat verməklə növbəti siyasi və diplomatik gediş etdi. Belə ki, Azərbaycan ermənilərin növbəti təcavüzünə tutarlı cavab verdi. Biz ərazilərimizi işğaldan azad edərkən onların yalançı göz yaşlarına heç kəsin inanmamasının təməlini qoyduq. Axı onlar bugünə qədər özlərini zavallı, yazıq və məzlum millət kimi təqdim ediblər. Dövlət başçısı onların bu maskalarını üzlərindən çıxararaq yırtıb kənara atdı və hamıya göstərdi ki, düşmənimiz nə qədər məkrli və yalançıdır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Nümayəndə heyətimiz BMT Baş Assambleyasının 75-ci sessiyasında Ermənistan baş nazirinin cəfəng bəyanatlarını qətiyyətlə rədd edib

Azərbaycan Respublikasının BMT-dəki Daimi Nümayəndəsinin müavini Tofiq Musayev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi siyasi debatlarında bəyanatla çıxış edərək Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan münaqişəsi və Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ regionu barədə bəyanatına cavab verib.

AZƏRTAC xəbər verir ki, T.Musayev əvvəlcə bəzi məlum faktları xatırladıb. Hamıya yaxşı məlum olduğu kimi, 1990-cı illərin əvvəlində Ermənistan Azərbaycan ərazilərini işğal etmək məqsədilə çoxdan hazırlanmış planını həyata keçirmək üçün Azərbaycana qarşı hərbi qüvvə tətbiq edib. Erməni təcavüzü nəticəsində Azərbaycan ərazisinin xeyli hissəsi, o cümlədən Dağlıq Qarabağ, ona bitişik 7 rayon və bəzi eksklavlar Ermənistan tərəfindən işğal edilib və hələ də işğal altındadır. Müharibə on minlərlə insanın həyatına son qoyub, Azərbaycanda mülki infrastrukturun və əmlakın ciddi dağıntılarına səbəb olub. İşğal edilmiş ərazilərdə bütün azərbaycanlılara qarşı etnik təmizləmə aparılıb, bir milyondan çox azərbaycanlı həmin ərazilərdəki doğma yurdlarını tərk etməyə məcbur olub.

Ermənistanın öz qeyri-qanuni iddialarını və əməllərini təyini-müqəddərat barədə spekulyasiyalarla maskalamaq cəhdləri tamamilə əsassızdır və bu iddialarla Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində və ATƏM-in 1975-ci il Helsinki Yekun Aktında və digər müvafiq beynəlxalq sənədlərdə təsbit olunmuş prinsiplər arasında heç bir ümumi cəhət yoxdur.

Beynəlxalq vasitəçilər münaqişənin nizamlanması prosesi barədə bəyanatlarında konkret olaraq Helsinki Yekun Aktına istinad edirlər. Bu sənədə əsasən iştirakçı dövlətlər, o cümlədən Ermənistan “bütün hallarda Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn müvafiq normalarına, o cümlədən dövlətlərin ərazi bütövlüyünə dair normalara uyğun olaraq xalqların bərabər hüquqlarına və öz müqəddəratını təyin etmək hüququna hörmət etməlidirlər”.

Azərbaycanın BMT-dəki Daimi Nümayəndəsinin müavini sözünə davam edərək bildirib ki, təyini-müqəddərat barədə iddialar beynəlxalq hüququn, o cümlədən dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə qarşı güc tətbiq etməklə hədələməni və ya güc tətbiq olunmasını qadağan edən imperativ normaların (jus cogens) pozulması ilə müşayiət olunursa, bu iddialar qəbuledilməzdir.

Ermənistan iddia edir ki, Dağlıq Qarabağın belə adlandırılan “hakimiyyət orqanları” danışıqlarda iştirak etməlidirlər. Bu iddianın heç bir əsası yoxdur. Ermənistan bütün azərbaycanlıları Dağlıq Qarabağ regionundan qovandan sonra orada regionun hakimiyyət orqanları kimi yaratdığı oyuncaq etnik rejimin tətbiq olunması üçün səylərini əsirgəmir. Lakin ATƏT özünün müvafiq sənədlərində və qərarlarında etiraf edir ki, Azərbaycanın bu regionunun əhalisi iki bərabərhüquqlu icmadan, konkret olaraq azərbaycanlı və erməni icmalarından ibarətdir. Bu və ya hər hansı digər sənədlərin və qərarların heç birində erməni icması “seçilmiş hakimiyyət” adlanmır.

Son iki ildə biz Ermənistan rəhbərliyinin sülh prosesini pozmaq, o cümlədən danışıqların formatını dəyişmək cəhdlərinin şahidləri olmuşuq. Bu səbəbdən ATƏT-in Minsk qrupunun həmsədrləri 2019-cu il martın 9-da bəyanatla çıxış edərək, danışıqların formatının birtərəfli qaydada dəyişdirilməsi tələblərindən çəkinməyə çağırıblar.

Azərbaycanlı diplomat daha sonra vurğulayıb ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində qurulmuş oyuncaq rejimin qanunsuz olması beynəlxalq səviyyədə dəfələrlə bəyan edilib; Ermənistanın rəhbərliyi və nəzarəti altında olan bu rejim nəticə etibarilə azərbaycanlılara qarşı irqi, etnik və dini motivlər əsasında törədilmiş təcavüz, etnik təmizləmə və digər cinayətlərin nəticəsindən başqa bir şey deyil.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə yekdilliklə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli qətnamələrində nəinki uydurma “Dağlıq Qarabağ xalqı” və onun “təyini-müqəddərat hüququ”nun adı çəkilməyib, həm də Azərbaycana qarşı güc tətbiq edilməsi və onun ərazilərinin işğal olunması pislənilib, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə, onun beynəlxalq sərhədlərin toxunulmazlığına hörmət etməyin vacibliyi, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiqlənib, işğalçı qüvvələrin Azərbaycanın işğal altında olan bütün ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilib. Digər beynəlxalq təşkilatların qəbul etdiyi, dünya birliyinin vahid mövqeyini ifadə edən çoxsaylı sənədlər də bu ruhda tərtib olunub.

Təəccüblü deyil ki, Ermənistanın hakimiyyət orqanları münaqişənin nizamlanmasının hüquqi və siyasi əsasını təşkil edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və digər müvafiq beynəlxalq sənədlərin adını çəkməkdən çəkinirlər. Aşkardır ki, Ermənistanın hakimiyyət orqanlarının münaqişənin yalnız sülh yolu ilə nizamlanmasına sadiq olması barədə bəyanatları Yerevanın dəqiq müəyyən edilmiş ilhaqçı məqsədlərini maskalamaq üçün boş ritorikadan, gözdən pərdə asmaqdan başqa bir şey deyil. Ermənistan Azərbaycan ərazilərinin işğal edilməsi üçün hərbi qüvvə tətbiq etməklə əslində sülhün alternativinin mövcud olmasına özünün qəti inamını nümayiş etdirib.

2020-ci ilin iyulunda Ermənistan silahlı qüvvələri beynəlxalq hüququ kobud şəkildə pozaraq artilleriya və minomyotlardan istifadə etməklə, Azərbaycanın əhalisi sıx olan rayonlarını bilavasitə hədəfə alaraq hücuma başlayıblar. Nəticədə Azərbaycanın 76 yaşlı dinc sakini, Azərbaycan Silahlı Qüvvələrinin 12 zabiti və əsgəri həlak olub, çoxsaylı insanlar yaralanıb, bu rayondakı mülki obyektlərə ciddi ziyan vurulub.

Ermənistanın Azərbaycana qarşı silahlı təxribat həyata keçirməsinə hətta COVID-19 pandemiyasının dağıdıcı təsiri də mane olmayıb. Tamamilə aşkardır ki, Ermənistanın BMT Baş katibinin qlobal atəşkəs barədə çağırışını dəstəkləməsi və bu çağırışa sadiq olması barədə bəyanatları ağ yalandır. Şübhə yoxdur ki, Ermənistanın məqsədi insanların həyatını xilas etmək və onların iztirablarını yüngülləşdirmək deyil, özünün təcavüz və ilhaq siyasətini genişləndirmək və möhkəmlətməkdir.

T.Musayev qeyd edib ki, Ermənistanın Azərbaycanda mülki şəxslərə hücumlarının və yaşayış məntəqələrini bombardman etməsinin siyahısına nəzər salsaq, onun Azərbaycanda mülki infrastruktura qarşı güc tətbiq etmək barədə daimi hədələrini nəzərə alsaq, onun ehtimal edilən “nüvə terrorizmi” barədə təhdidləri xüsusilə təəccüb doğurur. Azərbaycan öz silahlı qüvvələrinin heç vaxt mülki obyektlərə hücum etməyi planlaşdırmadığını və beynəlxalq humanitar hüququ normalarına ciddi riayət etdiyini müvafiq səviyyədə dəqiq bəyan edib. Ermənistandan fərqli olaraq, Azərbaycan yalnız Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq adət hüququna müvafiq olaraq özünümüdafiə hüququ çərçivəsində hərəkət edir.

İnsan haqları və demokratiya məsələsinə gəldikdə isə Ermənistanın hakimiyyət orqanları başqa ölkələri ittiham etməkdən əvvəl özünə diqqətlə baxmalıdır. Həqiqətən, Ermənistanda bir-birini əvəz etmiş hökumətlər, o cümlədən indiki hökumət də zorakı yolla hakimiyyətə gəlib və öz siyasi opponentlərinə qarşı mübarizənin ən qəddar metodlarından istifadə edib. Müxalifətin boğulması, siyasi motivlər əsasında qətllər, KİV azadlığının məhdudlaşdırılması, məhkəmə sisteminə müdaxilə, Azərbaycana və digər qonşu ölkələrə nifrət və etnik uyuşmazlıq barədə odioz ideyaların açıq təbliği - bugünkü Ermənistandakı acı reallıq belədir.

Ermənistan əvvəlki kimi, yenə də regional və beynəlxalq sülhə, təhlükəsizliyə və sabitliyə ciddi təhdid mənbəyidir. Buna görə beynəlxalq birlik tərəfindən təxirəsalınmaz tədbirlər görülməlidir.

T.Musayev çıxışının sonunda qeyd edib ki, möhkəm sülhün təməli və məqsədi işğalçı erməni qüvvələrinin Dağlıq Qarabağ regionundan və Azərbaycanın işğal altında olan digər ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasının təmin edilməsi, Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün bərpa olunması, məcburi köçkünlərin öz yurdlarına qayıtmasıdır. Bu hədəfə çatmaq kompromis deyil, zərurətdir.

# Yaponiyanın nüfuzlu “Asahi shimbun” qəzetində Ermənistan ordusunun təxribatları ilə bağlı analitik məqalə dərc olunub

Yaponiyanın nüfuzlu “Asahi shimbun” qəzeti son aylarda Ermənistan ordusunun Azərbaycanla sərhəddə törətdiyi təxribatlarla bağlı böyük analitik məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, xanım Miyuki Çikauçinin müəllifi olduğu “Keçmiş Sovet İttifaqının uzaq bölgəsində baş vermiş münaqişənin tarixçəsi və Yaponiya” sərlövhəli məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verilir, Ermənistan ordusu tərəfindən Azərbaycanın Dağlıq Qarabağ regionu da daxil olmaqla ətraf yeddi rayonun işğal edilməsi, münaqişə nəticəsində 30 min insanın həlak olması və bir milyondan çox azərbaycanlının ata-baba yurdlarından didərgin düşməsindən bəhs olunur. Qeyd edilir ki, cari ilin iyulunda iki dövlət arasındakı sərhəddə baş verən silahlı toqquşma yalnız qonşuluqda yerləşən dövlətləri deyil, eyni zamanda ABŞ-ı və Avropa İttifaqı ölkələrini də narahat edib. Müəllifin mövqeyinə görə, buna səbəb döyüşlərin baş verdiyi regionun Avropa ölkələrinin enerji təminatında mühüm əhəmiyyətə malik olan nəhəng neft və qaz xətlərinə yaxın olmasıdır. Buna görə də enerji resurslarına malik olmayan Yaponiya bu məsələdə xüsusi mövqe nümayiş etdirməli və bu regiona diqqətlə yanaşmalıdır.

Münaqişənin tarixinə ekskurs edən müəllif vurğulayır ki, 1994-cü ildə Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında atəşkəs barədə razılıq əldə olunsa da, Ermənistan Azərbaycana məxsus Dağlıq Qarabağ regionunu və ona bitişik yeddi rayonu işğal altında saxlamaqda davam edir.

Məqalədə iyulun 12-dən başlayaraq iki ölkənin sərhədində baş verən toqquşma barədə ətraflı məlumat verilərək bu ərazinin Dağlıq Qarabağdan 300 kilometr şimalda yerləşməsinə xüsusi diqqət yönəldilir. Bildirilir ki, məhz bu məqam münaqişənin həllinə çalışan ATƏT-in Minsk qrupunun həmsədrləri olan Rusiya və ABŞ-la yanaşı, Avropa İttifaqının da tərəfləri təmkin nümayiş etdirməyə, atəşi təcili şəkildə dayandırmağa çağırış etməsinə səbəb olub.

Hadisələr zamanı Türkiyənin mövqeyinə xüsusi diqqət çəkən müəllif qeyd edir ki, yalnız bu ölkənin parlamenti, iqtidar və müxalifət partiyaları bəyanat verərək həmişə Azərbaycanın yanında olduqlarını bildiriblər. Vurğulanır ki, Ermənistanı işğalçı siyasətdə ittiham edən Türkiyə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün lazım olan bütün addımları atacağını bəyan edib. Bunun səbəbi kimi isə bu iki ölkənin bir-birinə qardaş münasibəti və “bir millətin iki dövləti” olması qeyd edilir.

Eyni zamanda döyüşlərin başladığı Tovuz rayonunda Rusiyadan yan keçərək Gürcüstan vasitəsilə Türkiyəyə istiqamətlənən qaz və neft borularının keçdiyi xüsusi qeyd edilir. Bildirilir ki, enerji ehtiyatlarının idxalına ehtiyac duyan Türkiyənin iqtisadi maraqları üçün bu əsas məqamlardan biridir. Məhz Avropa İttifaqının iki ölkə arasında münasibətlərin gərginləşməsinə kəskin reaksiya verməsinin kökündə bu səbəb dayanır. Qeyd edilir ki, uzunluğu 3500 kilometr olan “Cənub qaz dəhlizi” vasitəsilə Xəzərin təbii qazının Gürcüstandan Türkiyəyə və Yunanıstandan keçməklə İtaliyaya çatdırılması nəzərdə tutulur. Bu boru xəttinin inşasının cari ilin payızında yekunlaşacağı bildirilir.

Əlavə olaraq vurğulanır ki, Ermənistanın işğalçı siyasəti onu regionda həyata keçirilən nəhəng layihələrdən kənarda qoyub. Eyni zamanda Ermənistanın Türkiyəyə qarşı I Dünya müharibəsi vaxtı əsassız olaraq irəli sürdüyü “erməni soyqırımı” məsələsinə də toxunulur. Bildirilir ki, Avropa və ABŞ-da olan güclü diasporun köməyi ilə hər il aprelin 24-də Qərb ölkələrinin parlamentlərində qabardılan bu məsələ Türkiyə tərəfindən rədd edilsə də, əsaslı narahatlığa səbəb olur. Ermənistan dövlətinin məhz bu siyasəti həm Türkiyə, həm də Azərbaycanla diplomatik münasibətlərin bərpasına ciddi əngəl törədir.

Məqalədə Ermənistana Rusiya tərəfindən müntəzəm şəkildə göstərilən dəstək məsələsinə də toxunulur. Qeyd edilir ki, Qafqazın üç dövləti arasında Rusiyanın daha çox Ermənistanı dəstəkləyən siyasəti, Türkiyə ilə sərhəddə Rusiya hərbi bazasının yerləşməsi həm Azərbaycanın, həm də Türkiyənin narazılığına səbəb olur.

Yazıda müəllif Türkiyənin son illər Rusiyadan enerji asılılığını azaltmaq istiqamətində siyasətinə də toxunur. Bildirilir ki, əgər 2011-2017-ci illərdə Türkiyə istehlak etdiyi təbii qazın 50 faizini Rusiyadan alırdısa, son illər bu istiqamətdə həyata keçirilən şaxələndirmə siyasəti nəticəsində bu göstərici 30 faizə enib. Bununla yanaşı, Azərbaycandan idxal edilən enerji daşıyıcılarının həcmi son 10 ildə ilk dəfə Rusiyadan idxalı 20 faiz, cari ilin mayından isə 2,5 dəfə üstələyib.

Müəllif qeyd edir ki, Türkiyənin hazırda enerji daşıyıcılarının şaxələndirilmiş şəkildə idxalı istiqamətində atdığı addımlar, eyni zamanda Aralıq dənizinin şərqində dənizin dibinin müstəqil tədqiqi üçün apardığı araşdırmalar regionda böyük enerji ehtiyatlarına malik Rusiya dövrünün başa çatdığını deməyə əsas verir.

Məqalədə Yaponiyanın Qafqaz regionundakı siyasəti məsələsinə də toxunulur, müəllif təəssüf hissi ilə bu mövzunun ölkə mətbuatında kifayət qədər işıqlandırılmadığını qeyd edir. Eyni zamanda bildirir ki, son illər Yaponiya Avropa və Asiyanın qovuşağında yerləşən Qafqaz ölkələrində iştirakını artırmağa çalışır. Belə ki, Yaponiya şirkətlərinin Azərbaycanın enerji sektoruna və Gürcüstandan keçərək Qara dənizədək olan 460 kilometr uzunluğunda beynəlxalq avtomagistralın inşasına investisiyalar ayırdığı qeyd edilir. 2018-ci ildə Yaponiyanın Xarici İşlər naziri Taro Kononun üç Qafqaz ölkəsinə səfərini, həmin səfər zamanı insan ehtiyatlarının və infrastrukturun inkişafına yönələn “Qafqaz təşəbbüsü”nün elan olunduğunu xatırladır.

Digər tərəfdən, enerji ehtiyatları ilə zəngin olmayan Yaponiyanın enerji təminatında regionun oynaya biləcəyi rola da məqalədə xüsusi diqqət yetirilir.

Məqaləyə müəllifin 2017-ci ilin avqustunda Azərbaycana səfəri zamanı çəkdiyi fotolar da əlavə edilib.

# Biz birlikdə güclüyük!

## Naxçıvanda "Arıçılıq məhsulları - bal festivalı" keçirilib



Naxçıvanda arıçılığın qədim ənənələri var. Bu gün də muxtar respublikada arıçılıq inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası bu sahəyə marağı artırıb, yeni arıçılıq təsərrüfatları yaranıb, festival ənənəsi formalaşıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 26-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində beşinci "Arıçılıq məhsulları - bal festivalı" keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak edib.

Festival açıq elan edildikdən sonra Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti kafedrasının baş müəllimi, biologiya üzrə fəlsəfə doktoru Əli Tahirov çıxış edərək deyib ki, Naxçıvanda arıçılıq son 20 ildə geniş surətdə inkişaf etdirilməyə başlanılıb. Hazırda muxtar respublikada arı ailələrinin sayı 99 mindən çoxdur. Arıçılığın inkişafı, ilk növbədə onun yem bazası ilə əlaqədardır. Muxtar respublikanın florası nektarlı bitkilərlə zəngindir. Belə ki, Azərbaycanda mövcud olan 400 növ balverən bitkinin əksəriyyəti qədim diyarımızda mövcuddur.

Baxış zamanı məlumat verilib ki, festivala muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən 289 arıçı tərəfindən 14 tondan artıq süzmə, 2 tondan artıq şan bal, arı südü, mum, vərəmum, çiçək tozu və güləm çıxarılıb. Naxçıvan balı öz dadı, ətri, görünüşü, həmçinin bir sıra keyfiyyət göstəricilərinə görə Azərbaycanda, eyni zamanda, qonşu ölkələrdə yaxşı tanınır və yüksək qiymətləndirilir. Son illər Naxçıvanda arıçılıq sahəsində aparılan elmi araşdırmaların həcmi çoxalıb, bu sahəyə dair kitab və dərsliklər nəşr olunub. Balla yanaşı, vərəmum, çiçək tozu, güləm, arı südü və digər arıçılıq məhsulları yüksək tibbi əhəmiyyətə malikdir.

Naxçıvan Dövlət Universitetinin müəllimləri polenli nektarlı bitkilərin herbariləri, yeni nəsil arı pətəkləri, ana arı südünü almaq üçün vasitə, şansız arı paketi, ana arı sürfəköçürmə aləti və arı südü çərçivəsi haqqında ərafli məlumat veriblər.

Ali Məclisin Sədri arıçılarla söhbət edib, bal alıb, onların qayğıları ilə maraqlanıb.

Arıçılar Birliyinin sədri Etibar Məmmədov, Arbatan kənd sakini Tahir Ələkbərov, Günnüt kəndindən olan arıçı, 2019-cu ildə keçirilən "Arıçılıq məhsulları - bal festivalı"nın qalibi olmuş Fikrət Məmmədov, Yuxarı Qışlaq kəndindən olan Əsəd Hacıyev, Çalxanqala kənd sakini Şəmsi Nəcəfov və Xıncab kənd sakini Habil Abbasov, Heydərabad qəsəbə sakini Zakir Zamanov, Əlincə kənd sakini Balabəy Allahverdiyev və Ərəfsə kənd sakini Aqil Qələndərov, Kotam kənd sakini Anar Həsənov və Vənənd kənd sakini Yaqut Babayeva minnətdarlıq edərək deyiblər ki, arıçılığa göstərilən dövlət qayğısı sayəsində muxtar respublikada arıçılıq özünün inkişaf dövrünü yaşayır. Festivalların keçirilməsi həm məhsul satışı, həm də arıçılar arasında təcrübə mübadiləsi aparılması baxımından əhəmiyyətlidir. Yaradılan şərait nəticəsində təsərrüfatlarımızda olan arı ailələrinin sayını ikiqat artırmışıq. Bu da tələbatdan artıq bal istehsal etməyimizə və bazara keyfiyyətli məhsul çıxarmağımıza imkan verib.

Festival bu gün də davam edəcək, arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları - bal" nominasiyası üzrə müsabiqə keçiriləcək.

* * *

Həmin gün Ali Məclisin Sədri "Naxçıvanqala" Tarix - Memarlıq Abidəsində aparılan bərpa işləri ilə tanış olub, müvafiq tapşırıqlar verib.

## Dünyanın neft tarixi Azərbaycandan - Balaxanı və Bibiheybət mədənlərindən başlanır

*Əvvəli 1-ci səh.*

İndi dünyanın bir çox dəniz akvatoriyalarındakı neft-qaz yataqlarında axtarış-kəşfiyyat işləri, eləcə də karbohidrogenlərin hasilatı həyata keçirilir. Dənizdə neftçıxarmanın tarixi də Xəzərdən - Xəzərin Azərbaycan sektorundan başlanıb. 71 il əvvəl burada polad estakadalar üstündə ilk dəniz mədəninin yaradılması dünya üçün tamamilə yeni bir hadisə olub.

Başqa sözlə, "Neft Daşları" adını alan həmin yataq ölkəmizi açıq dənizdə neftçıxarmanın vətəni kimi tanıdıb. "Neft Daşları"nın özünü isə "möcüzələr adası", "dünyanın səkkizinci möcüzəsi" adlandırmağa başlayıblar.

"Neft Daşları" sonralar da bir çox ilklərə imza atıb. Yataq neft-qaz sənayesinin inkişafında yeni mərhələni - dəniz yataqlarının mənimsənilməsi təcrübəsini ortaya qoyub. Ötən illərdə burada meydançalarla birlikdə təxminən 300 kilometr estakada inşa edilib.

"Neft Daşları" Azərbaycanda neft hasilatının artmasına böyük təkan verib. Belə ki, bu yataqda ilk quyu fontan vurduğu vaxtdan bir il əvvəl - 1948-ci ildə respublikada illik neft hasilatı 14 milyon ton olub. Sonrakı vaxtda hasilat getdikcə artaraq 1966-cı ildə 22 milyon tona çatıb.





Dünya təcrübəsində ilk dəfə olaraq dənizdə laylara suvurma metodu da məhz "Neft Daşları" yatağında tətbiq edilib. İşlənmənin əvvəlindən bəri burada laylara 270 milyon kubmetrə yaxın su vurulub ki, bu da quyuların fontan üsulu ilə işləməsinin müddətini xeyli uzadıb. Nəticədə layların neftvermə əmsalı nəzərəçarpacaq dərəcədə artıb.

Ən son yenilik isə odur ki, yaxın gələcəkdə "Abşeron" qaz-kondensat yatağında quraşdırılacaq hasilat platformasının fəaliyyəti Neft Daşları ilə bağlı olacaq. Belə ki, platformanı kənardan, yəni Neft Daşlarında yerləşdirilən moduldan idarə etmək üçün innovativ həll yolları işlənib hazırlanmışdır. Xəzərdə ilk dəfə olaraq "boru içində boru" texnologiyası tətbiq ediləcək. Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etdikdən sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və "Real" Televiziyasına verdiyi müsahibədə bildirmişdir ki, "Abşeron" yatağı ilə bağlılıq Neft Daşlarına yeni həyat verəcək.

Ulu Öndər Heydər Əliyev dəfələrlə bu dəniz şəhərində olmuş, onun qəhrəman neftçilərinin əməyini yüksək qiymətləndirmişdir.

"Neft Daşları XX əsrdən XXI əsrə atılmış körpüdür" demişdir.

Neft Daşları Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Dəfələrlə dəniz neftçilərinin görüşünə gələn dövlət başçısı onların fədakar əməyinin şahidi olmuş, qayğıları ilə maraqlanmışdır. Neftçilərin bir çoxunu dövlət mükafatları ilə təltif etmiş, həmçinin əmin olduğunu bildirmişdir ki, Neft Daşları hələ uzun illər Azərbaycan xalqına xidmət edəcək.

"Neft Daşları" bu gün də nefti və qazı ilə ölkə iqtisadiyyatına sanballı töhfələr verir. SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə bildirib ki, hazırda yataqda illik neft hasilatı 945-950 min ton, qaz hasilatı 85 milyon kubmetr həcmindədir. İşlənmənin əvvəlindən bu vaxtadək isə "Neft Daşları" yatağından təxminən 176,4 milyon ton neft və 14 milyard kubmetr təbii qaz hasil edilib.

Akademik həmçinin xatırladıb ki, Abşeron-Balaxanıyanı qalxımından neft alınması sonradan "Azəri-Çıraq-Günəşli" kimi yataqların açılmasına da zəmin yaradıb. Dünyada dəniz akvatoriyalarının mənimsənilməsi epoxasının əsasını qoymuş "Neft Daşları" yatağının kəşfi təkcə keçmiş SSRİ-də - Xəzər, Oxot, Barens dənizlərində, Qara dənizdə deyil, həm də dünyanın bir çox dəniz və okean akvatoriyalarında - Meksika körfəzində, Şimal dənizində axtarış-kəşfiyyat işlərinin inkişafına güclü təkan verib.

Beləliklə, "dəniz neftçisi" peşəsi də əslində Azərbaycanda yaranıb. Yəni "Neft Daşları" yatağı açıq dənizdə işləmək üçün təcrübəli kadrların hazırlanmasında əsl məktəb olub. Keçmiş SSRİ-nin, həmçinin dünyanın bir çox neft regionlarındakı həmkarları həmin məktəbin yetişdirdiyi mütəxəssislərimizin bilik və təcrübəsindən bəhrələniblər.

Dünyada neft-qaz axtarışlarının və hasilatının böyük bir hissəsi dəniz akvatoriyalarının payına düşür. Okean və dənizlərin şelfində işlər getdikcə daha da genişlənir. İndi suyun dərinliyi min metrdən çox olan sahələrdə karbohidrogen ehtiyatlarının mənimsənilməsi prosesi gedir. Bu böyük prosesin təməlini Azərbaycan neftçisi yaradıb! Ümumiyyətlə, neftin tarixi kimi dəniz neftinin də erası Azərbaycandan başlanıb!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycan bu dəfə də birincilərdən olacaq

*Əvvəli 1-ci səh.*

Hazırda bir sıra ölkələr vaksinlər üzərində iş aparır və ön sifarişlər qəbul edirlər. Lakin vaksinlərə olan tələbatın onların istehsal potensialından çox olmasını nəzərə alaraq, növbəti sifarişləri tezliklə tam təmin etməkdə çətinlik yarana bilər. COVID-19 ilə mübarizədə vaksin istehsalını sürətləndirmək məqsədilə bir müddət əvvəl Qlobal Peyvəndlər Alyansı (GAVI), Epidemiyaya Hazırlıq İnnovasiyalar Alyansı (CEPI) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən COVAX platforması yaradılıb. COVAX, geniş sayda peyvənd namizədlərini müxtəlif texnologiyalar vasitələrilə qiymətləndirərək təhlükəsiz COVID-19 peyvənd təkliflər portfelini istifadə etmə imkanı yaradan əvəzolunmaz mexanizmə malik sistemdir. COVAX bütün ölkələr üçün effektiv peyvənd axtarışını sürətləndirən, dünyada COVID-19-a qarşı peyvəndlərə sürətli, ədalətli və bərabər əlçatanlığı təmin etmək üçün hazırlanmış bir mexanizmdir. Onun məqsədi 2021-ci ilin sonunadək normativ təsdiqlənmə və ya ÜST-nin prekvalifikasiya mərhələsindən keçmiş iki milyard doza miqdarında təhlükəsiz və effektiv peyvəndin paylanmasıdır.

Sentyabrın 18-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI təşkilatı arasında imzalanmış sazişə əsasən, ÜST tərəfindən təsdiqlənmiş və tələblərə cavab verən peyvənd istehsal olunduqda tez bir zamanda təşkilatın başqa üzv ölkələri ilə bərabər Azərbaycan da təsdiqlənmiş peyvəndlə təmin olunacaq.

ÜST-nin Azərbaycan nümayəndəliyi rəsmi Bakının COVAX mexanizminə qoşulma təşəbbüsünü alqışlayıb. ÜST-nin Azərbaycan nümayəndəliyindən bildirilib ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və GAVI arasında bağlanan sazişə görə, ÜST-nin prekvalifikasiya mərhələsindən keçmiş COVID-19 əleyhinə peyvənd istehsal olunduqda Azərbaycan peyvəndi ilk əldə edən ölkələrdən biri olacaq.




TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bu barədə danışarkən bildirib ki, vaksinasiya üçün ölkənin tələbi üzrə hesablamalar əhalinin ilkin olaraq 20 faizinə peyvəndin vurulmasının epidemioloji vəziyyətə effektiv nəzarət etmək üçün kifayət edə biləcəyini göstərir. Lakin vaksinlər üzrə vacib tələblər də mövcuddur. Belə ki, onlar effektiv və təhlükəsiz, kənar mənfi təsirləri minimum səviyyədə və virusa qarşı ən azından 50-70 faiz qoruyuculuq qabiliyyətində olmalıdır.

R.Bayramlının sözlərinə görə, Azərbaycan əhalisinin 10 faizə qədəri üçün peyvəndin COVAX çərçivəsində alınması nəzərdə tutulub. Sazişə əsasən, vaksinin ümumi dəyərinin bir hissəsi, yəni 3 milyon 235 min 840 dolları avans məbləği şəklində indi ödənilməlidir. Vaksinin tam təhlükəsizliyi ilə bağlı sınaqlar başa çatdıqdan sonra alacağımız vaksinin məbləğinin digər hissəsi ödənilməlidir. Hökumətin qərarına əsasən, bu sazişin icrasından irəli gələn məsələlərin, yəni COVAX platforması çərçivəsində ÜST tərəfindən təsdiq olunmuş vaksinlərin alınaraq Azərbaycana gətirilməsinin maliyyə xərcləri Koronavirusla Mübarizəyə Dəstək Fondundan ödəniləcək.

Mart ayında COVID-19 xəstəliyinin Azərbaycanda yarada biləcəyi təhlükənin qarşısının alınmasını, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsini, əhalinin həyat və sağlamlığının qorunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı. Həmin vaxt xalqımızın milli həmrəyliyi və dəstəyi ilə fonda milyonlarla manat vəsait toplandı. Dövlət başçısı İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva bir illik əməkhaqlarını fonda ianə etdilər.

Fondun vəsaitinin sərəncamçısı Nazirlər Kabinetidir. Baş Nazirin apreldə imzaladığı qərarla fondda toplanmış vəsaitdən istifadə zamanı şəffaflığın təmin edilməsi və vəsaitdən istifadə barədə ictimaiyyətin mütəmadi məlumatlandırılması məqsədilə Nazirlər Kabineti yanında İctimai Nəzarət Şurası yaradılıb. Fondun fəaliyyətində tam şəffaflığın təmin edilməsi çərçivəsində bütün ianələr və onları edən fiziki və hüquqi şəxslər barədə fondun rəsmi internet səhifəsində məlumat yerləşdirilir.

Azərbaycan dövləti koronavirus infeksiyasına qarşı mübarizəni ardıcıl davam etdirir və əhalinin sağlamlığının qorunması üçün bütün mümkün üsullardan istifadə edir, bu məsələdə maksimum şəffaflıq və ictimai nəzarət təmin olunur. Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaiti də son qəpiyinə qədər xalqımızın sağlamlığına, COVID-19 pandemiyasından xilas olmasına xərclənəcək.

Qabaqlayıcı və qadağanedici tədbirlər, eləcə də insanların karantin qaydalarına əməl etməsi, məsuliyyətli davranması sayəsində hazırda respublikamızda epidemioloji vəziyyət tam nəzarət altındadır, virusa kütləvi yoluxmanın qarşısı alınıb, gündəlik statistika sayı sabitləşib. Lakin bu, heç də koronavirusun təsir gücünün azalması kimi qəbul edilməməlidir. Nəzərə alsaq ki, məktəblərin, iş yerlərinin açılması, nəqliyyat vasitələrinin tam gücü ilə fəaliyyət göstərməsi insanlar arasında təmasların artması deməkdir. Təmasların sayı artdıqca isə yoluxmaların da çoxalması labüd haldır. Belə olan halda qarşımızda duran əsas vəzifə karantin qaydalarına daha ciddi riayət etməkdir. Unutmayaq ki, hazırda həyatımız məhz bu sadə qaydalardan asılıdır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Koronavirus infeksiyasından daha 131 nəfər sağalıb, 108 nəfər isə yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 131 nəfər sağalıb, 108 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 39 min 895 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 37 min 523 nəfər müalicə olunaraq sağalıb, 585 nəfər vəfat edib. Aktiv xəstə sayı 1787 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 95 min 543 test aparılıb. Dünənki test sayı isə 7965-dir.




## Koronavirus ilə əlaqədar ölüm hallarının sayı iki milyonu ötə bilər

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) koronavirus pandemiyası ilə əlaqədar ölüm hallarının artacağına dair xəbərdarlıq edib.

AZƏRTAC xəbər verir ki, beynəlxalq qurumun məlumatına görə gələn həftə COVID-19 xəstəliyi ilə əlaqədar ölənlərin sayı dünya üzrə bir milyon nəfərə çata bilər. ÜST-nin fövqəladə hallar proqramının icraçı direktoru Maykl Rayan bildirib ki, pandemiya qurbanlarının sayının iki milyon olacağını təsəvvürə gətirmək olmur, lakin bu, qeyri-mümkün də deyil. O, hazırkı yoluxma və ölüm hallarındakı artımın qarşısının alınması və epidemiyanın yayılmasında dönüşə nail olunmasını mümkün hesab edib. Bunun üçün gigiyena, maskadan istifadə, sosial məsafə, testlər, karantin və s. kimi qaydalara bütün dünya üzrə və ciddi şəkildə riayət olunmalıdır: "Əsas sual bundan ibarətdir ki, biz multilateral və qlobal şəkildə elə bir əməkdaşlığın qurulmasına hazırlaşmalıyıq ki, virus bizim taleyimiz üzərində deyil, biz virus üzərində nəzarəti ələ keçirək. Əgər biz əməkdaşlığın forma, həcm və intensivliyini bundan sonra da dərinləşdirməsək, o zaman qorxuram ki, biz belə rəqəmin və bəlkə də ondan daha yüksək rəqəmin reallaşacağına hazır olmalıyıq".

Qeyd edilməlidir ki, hazırda koronavirusla əlaqədar ölüm hallarının sayı dünya üzrə 983 min nəfərdən çoxdur.

## Könüllülük hərəkatı sumqayıtlıları birləşdirir



Sumqayıtda son illərdə genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilir. Yol infrastrukturu yenilənir, yaşayış binalarının dam örtükləri dəyişdirilir, fasadlar təmir olunur. Şəhərdə bütün sahələrdə aparılan işlər gələcəyə hesablanan hədəfdir və bu prosesdə hər kəs öz gücünü sərf etməkdədir.

Xüsusi karantin rejimi şəraitində çalışan sumqayıtlılar əsl fədakırlıq nümunəsi göstərmiş, pandemiyaya qalib gəlmək üçün verilən qaydalara riayət etmişlər. Şəhərdə bununla bağlı əhali məlumatlandırılmış, maarifləndirmə işləri genişləndirilmişdir.

Bu istiqamətdə fəaliyyət göstərən könüllülər şəhər həyatının bir qüvvəsinə çevrilib. İlin əvvəlindən başlayan hərəkatın sıraları genişlənməkdə, qüvvə nisbəti fərqli dərəcədə çoxalmaqdadır. İctimai işlərdə daha çox fərqlənən könüllülər keçirdikləri bütün tədbirləri uğurla yerinə yetirmişlər.

Belə tədbirlərdən biri də bu günlərdə baş tutub. Sumqayıt Şəhər İcra Hakimiyyəti və ASAN könüllülərinin birgə təşkilatçılığı ilə Xəzərin Sumqayıt sahilində təmizlik aksiyası keçirilib. Beynəlxalq Sahilyanı Təmizlik Günü, eyni zamanda, çimərlik mövsümünün bitməsi ilə əlaqədar təşkil edilən təmizlik aksiyası zamanı sahilyanı ərazilər tullantılardan təmizlənib.

Qeyd edək ki, Beynəlxalq Sahilyanı Təmizlik Günü su hövzələri sahillərinin tullantılardan təmizlənməsinə yönələn ən irimiqyaslı aksiyadır. Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dənizin ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Son 30 il müddətində dünyanın 100-dən çox ölkəsi hər il sentyabr ayının üçüncü şənbə gününü Beynəlxalq Sahilyanı Təmizlik Günü kimi qeyd edir. Bu məqsədlə bütün dünya üzrə on minlərlə insan könüllü olaraq yaşadıqları ərazilərin sahillərini tullantılardan təmizləyir.

Xəzərin sahilində keçirilən bu tədbirdə əvvəl yalnız könüllülər iştirak edib. Sonradan sahildə istirahətə gələn insanlar da onlara qoşularaq birlikdə tullantıları toplamış və bu hərəkatın iştirakçısına çevrilmişlər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Paytaxt küçələrində növbəti dəfə gücləndirilmiş dezinfeksiya işləri aparılıb

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanda koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirləri ilə bağlı tapşırıq və göstərişlərinə uyğun olaraq, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən paytaxtda epidemiyaya qarşı işlərin daha da genişləndirilməsi məqsədilə kompleks tədbirlər davam etdirilir.







Tədbirlər çərçivəsində sentyabrın 26-da səhər saatlarından etibarən Bakı Şəhər İcra Hakimiyyətinin strukturları tərəfindən paytaxtdakı 553 küçə və prospektdə kommunal təsərrüfat xidmətlərinin 40 ədəd xüsusi texnikası, Daxili İşlər Nazirliyinin 20 xüsusi təyinatlı avtonəqliyyat vasitəsinin köməyi və 2 min əməkdaşının iştirakı ilə xüsusi kimyəvi maddələrlə növbəti - on üçüncü dəfə əlavə gücləndirilmiş dezinfeksiya işləri həyata keçirilib.

Gün ərzində paytaxtın həm mərkəzi, həm də qəsəbə və yaşayış massivlərindəki küçələrdə də dezinfeksiya işləri aparılıb. Bu zaman istifadə edilən maddələrin qəbul olunmuş müəyyən toksikliyini nəzərə alaraq, paytaxt sakinlərinə əvvəlcədən KİV vasitəsilə ciddi zərurət yaranmadığı halda küçəyə çıxmamaq barədə xəbərdarlıq edilib.

Daxili İşlər Nazirliyinin şəxsi heyəti hər dəfə olduğu kimi, bu dəfə də 20 ədəd xüsusi təyinatlı avtonəqliyyat vasitəsinin köməyi ilə gün ərzində keçirilən bu dezinfeksiya işlərində yaxından iştirak ediblər.

Küçələrdə aparılan dezinfeksiya işləri ilə yanaşı, Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin əməkdaşları xüsusi qrafikə uyğun olaraq qurumun balansındakı yaşayış binalarında, lift kabinələrində, həyətlərdə və yaşayış məhəllələrində, buradakı idman-əyləncə qurğularında, məişət tullantılarının atıldığı konteyner meydançalarında tibbi-profilaktik və dezinfeksiya tədbirlərini davam etdiriblər.

Qeyd edək ki, qış aylarında yağıntılar yağan zamanı dezinfeksiya işləri lokal xarakterli olacaq.

Xatırladaq ki, geniş dezinfeksiya tədbirlərinin keçirilməsində əsas məqsəd vətəndaşlarımızı pandemiyanın fəsadlarından qorumaqdır. Bu istiqamətdə bütün lazımi tədbirlər görülür.

# REGİONLAR



## AFAQ layihəsinin ilkin mərhələsində 32 qadın fermerə dəstək verilib

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) layihəsinin ilkin mərhələsində 10 rayondan olan 32 qadın fermerə texniki dəstək verilib.

İlkin mərhələnin sonunda layihənin tələblərinə uyğun gələn və keçirilən təlimlər modulunu uğurla tamamlayan Balakən, Şamaxı, Qusar, Sabirabad, Neftçala və Masallı rayonlarında fəaliyyət göstərən qadınlar ehtiyaclarına uyğun müxtəlif texniki avadanlıqlarla təmin olunublar. Onlara fəaliyyət göstərdikləri sahələrə balsüzən aparat, arı yeşikləri, seperator, yağ çəkən aparat, süd sağan maşın, yem və dən üyüdən maşınlar, meyvə qurudan aparat və digər avadanlıqlar verilib.

Qeyd edək ki, layihədə iştirak etmək üçün ilkin mərhələdə 500-dən artıq qadın fermer müraciət etmişdir. İndiyədək 72 fermerin təsərrüfatına baxış keçirilərək qiymətləndirmə aparılıb. Tələb olunan şərtlərə uyğun gələn qadın fermerlər layihədə iştirak haqqı qazanıblar. Layihədə iştirak edən qadın fermerlərə texniki dəstəklə yanaşı, məsləhətlər verilir və təlimlər keçirilir.

Xatırladaq ki, müraciətlərin davam etdiyi AFAQ layihəsi aqrar sahədə fəaliyyət göstərən qadınların fəaliyyətini dəstəkləmək, onların bilik və bacarıqlarını artırmaq məqsədi ilə icra edilir. 2020-2021-ci illəri əhatə edəcək layihə çərçivəsində ümumilikdə 200-ə yaxın qadın fermerə dəstək verilməsi nəzərdə tutulur.



## Pambıqyığan maşınlar start xəttindədir

### Əl ilə yığım davam edir





Əvvəli 1-ci səh.

Kompleks becərmə tədbirlərinin yüksək aqrotexniki qaydalar əsasında həyata keçirilməsi hesabına tarlalarda bol məhsul yetişmişdir.

Rayonda pambıqçılıqla məşğul olan müəssisələrdən biri də "AzərPambıq ASK" MMC-nin Bərdə filialıdır. Müəssisənin rəhbəri Azər Quliyevlə görüşüb pambıq yığımına hazırlıqla əlaqədar görülən işlər barədə ətraflı məlumat aldıq:

- Cari təsərrüfat ilində 702 nəfər torpaq istifadəçisi ilə müqavilə bağlayaraq 4310 hektar sahədə pambıq əkmişik. Tarlaların becərilməsi ciddi mütəxəssis nəzarəti altında aparılmışdır. Xüsusilə əkinlərin suvarma suyu ilə təminatında heç bir çətinliklə üzləşmədik. İsti yay günlərində rayon Suvarma Sistemləri İdarəsinin kollektivi pambıqçılarımızın sudan korluq çəkməsinə imkan vermədi. Məhsul yığımında yenə də texnikaya geniş meydan verəcəyik. Bu məqsədlə 21 pambıqyığan maşın təmir edilib start xəttinə çıxarılmışdır. Nəqliyyat traktorları da, yedək vasitələri də tam hazırdır. Sahələrdə artıq yarpaqların tökülməsinə görə dərmanlama işlərinə başlanmışdır. 13 çiləyici aqreqat işlək vəziyyətdədir.

A.Quliyevin söhbətindən onu da öyrəndik ki, artıq bəzi sahələrdə əl yığımına başlanmışdır. Maşınların tarlaya rahat girib-çıxması üçün sahə kənarlarında arxlar doldurulub hamarlanır, məhsul daşınacaq tarla yolları səliqəyə salınır.

Ağ örpəyə bürünüb bol məhsuldan xəbər verən tarlalar bu yöndə tər axıdan, zəhmət çəkən hər kəsdə xoş ovqat, yüksək əhvali-ruhiyyə yaradır. Keçən il hər hektardan 40-45 sentner məhsul götürən qabaqcıl fermerlər - Həsənqaya kəndindən Bakir Məmmədov, Şirvanlı kəndindən Feruz İsmayılov, Piyadalar kəndindən Elmir Məmmədov, Mollalı kəndindən Valeh Həsənov mövsümün ilk günlərindən işə böyük həvəslə başlayıblar.

"Azər-Pambıq ASK" MMC-nin Bərdə filialında yeni mövsümlə bağlı görülən hazırlıq işləri, zəhmət bahasına yetişdirilən bol məhsul yeni nailiyyətlərdən soraq verir. Zavodda laboratoriya da, emal sexi də yeni məhsul qəbuluna hazırdır. Qeyd etmək yerinə düşər ki, keçən il zavodda təmiz çəkidə 13731 ton pambıq emal edilmiş, lif çıxımı 40,2 faiz olmuşdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Kiçik Qızılağac körfəzinə balıq körpələri buraxılıb

IDEA İctimai Birliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Turizm Agentliyinin nümayəndələri Qızılağac Milli Parkının yaradılmasının ildönümünə həsr olunmuş Xəzər dənizinin Kiçik Qızılağac körfəzinə körpə çəkikimi balıqların buraxılması mərasimində iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən birgə həyata keçirilən "Zəngin hövzələr" layihəsi çərçivəsində çəki, ağ amur və qalınalın balıq körpələri Kiçik Qızılağac körfəzinə buraxılıb.

Məlum olduğu kimi, son onilliklər ərzində ölkəmizin su hövzələrindəki balıq növlərinin təbii populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri nəticəsində məhvolma təhlükəsi həddinə çatıb.

Bununla əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın və Qafqaz regionunun su faunasının qorunması və bərpası üzrə bir sıra mühüm təşəbbüslər həyata keçirilir.

"Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin azaldılması qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

IDEA İctimai Birliyi və ETSN vətəndaşları balıq ehtiyatlarının qorunmasında, qadağan olunmuş üsullarla balıq ovunun qarşısının alınmasında yaxından iştirak etməyə, məsuliyyətli balıq ovlanmasının təbliğinə və təşviqinə dəstək verməyə çağırır.



## Goranboylular çəkdikləri zəhmətin bəhrəsini görürlər



Ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm işlər görülür. Aqrar sektora dövlət tərəfindən qoyulan investisiyalar ilbəil artır. Təsərrüfat sahibləri güzəştli qiymətlərlə yeni texnika, gübrə və yanacaqla təmin edilirlər. Kənd təsərrüfatının müxtəlif sahələrinə ayrılan sübsidiyalar da aqrar sahənin inkişafını sürətləndirir.

Aqrar sahənin inkişafına yönəlmiş bu işlər söz yox ki, Goranboyda da təsərrüfat sahiblərinə stimul verir. Dövlətin bütün imtiyazlarından bəhrələnən fermerlər hər ili uğurlu göstəricilərlə yola salırlar.

Cari təsərrüfat ilində rayonda 22853 hektar sahədə dənli bitkilər, o cümlədən 8250 hektarda buğda, 12783 hektarda arpa və 1820 hektarda qarğıdalı yetişdirilmişdir. Bu da əvvəlki ildəkindən xeyli çoxdur. Keçən il buğda sahələrinin hər hektarından 32,2, arpa sahələrindən 31,2 sentner məhsul götürülmüşdüsə, cari ildə rəqəmlər bir qədər də yüksəlmişdir. Hətta elə təsərrüfatlar var ki, ən yüksək göstəricilərə nail olmuşlar. Məsələn, rayonda fəaliyyət göstərən Aqropark həmişə olduğu kimi, bu il də irəlidə getmişdir. Eləcə də fermerlərdən Etibar Əhmədov, Rauf Həmidov, Zaur Musayev, Vitali Korobkin, Zahid Novruzov, Hafiz Əkbərov və Rafiq Rəsulov hər hektardan 40-50 sentner məhsul götürmüşlər. Taxılın optimal müddətdə və itkisiz yığılması üçün biçinə ümumilikdə 61 ədəd kombayn cəlb edilmişdir.

Sentyabr ayınadək 474 hektar sahənin kartofu çıxarılmış, hər hektardan orta məhsuldarlıq 106 sentner olmuşdur. Rayon tərəvəzçilərinin də çəkdikləri əziyyət hədər getməmişdir. Belə ki, 1291 hektar tərəvəz sahəsinin hər hektarından orta məhsuldarlıq 75 sentner olmaqla 9683 ton məhsul götürülmüşdür. Hazırda sahələrdə yığım sürətlə davam edir.

Goranboylular bu il 82 hektarda şəkər çuğunduru da əkmişlər. Hazırda rayonda bu qiymətli bitkinin yığımı həyata keçirilir. Hələlik hər hektardan orta məhsuldarlıq 164,5 sentner təşkil edir. Digər sahələrdə də göstəricilər yüksəkdir. Məsələn, 2510 hektar günəbaxan sahəsinin hər hektarından orta məhsuldarlıq 25,5 sentner olmaqla 6400,5 ton, 10 hektar lobya sahəsinin hər hektarından orta məhsuldarlıq 20 sentner olmaqla 20 ton, 110 hektar bostan sahəsinin hər hektarından orta məhsuldarlıq 269,8 sentner olmaqla 2968 ton məhsul götürülmüşdür. Hazırda 8 hektar tütün sahəsində məhsul yığımı davam etdirilir.

Bu il Goranboyda 2775,5 hektar pambıq əkilmişdir. Hazırda yetişdirilmiş məhsulu xəstəlik və ziyanvericilərdən qorumaq üçün aqrotexniki tədbirlər uğurla davam etdirilir. Pambığın optimal müddətdə, itkisiz yığılaraq qəbul məntəqələrinə təhvil verilməsi üçün səmərəli işlərə başlanılmışdır. Keçən ildən fərqli olaraq bu il pambıqyığan maşınlara daha çox üstünlük verilməsi nəzərdə tutulmuşdur. Pambıq yığımına hazırlıq məqsədilə Goranboy Rayon İcra Hakimiyyətində qərargah da yaradılmışdır. Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev rayon ərazisində pambıq istehsalı ilə məşğul olan "MKT-İK" MMC-nin Qarabağ Regional filialının, "Goran-Cotton" ASC-nin və "AzərPambıq" MMC-nin Goranboy Pambıq istehsalı və qəbulu məntəqəsinin rəhbərləri ilə görüşmüş, pambıq yığımı zamanı qarşıya çıxa biləcək hər hansı problemin operativ şəkildə həll edilməsi üçün tapşırıqlar vermişdir.

Goranboy rayonu suvarma suyu ilə təminatda çətinlik çəkən rayonlar sırasındadır. Lakin dövlət başçısının diqqət və qayğısı ilə bu problem tədricən aradan qaldırılır. Belə ki, rayonda suvarma işinin yaxşılaşdırılması məqsədilə dövlət başçısının imzaladığı sərəncamla 89 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulmuş və bununla bağlı yerlər seçilmişdir. Həmin subartezian quyularından 61 ədədinin qazılması təmin olunmuşdur. Hazırda qazma işləri davam etdirilir. Cari ilin sonunadək quyuların qazılıb istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Bundan başqa, "Şəmkir maşın kanalı"nın 3-cü hissəsinin çəkilişi üçün də hazırlıq işləri davam etdirilir.

Goranboy rayonunda iqtisadi cəhətdən səmərəli olan tütünçülük də ildən-ilə inkişaf etdirilir. Bu məqsədlə cari təsərrüfat ilində Qaraçinar, Yenikənd, Şəfəq, Zeyvə və Qarqucaq kəndlərinin ərazisində ümumilikdə 8 hektar tütün əkini aparılmış, plantasiyalarda bol məhsul yetişdirilmişdir. Bu günədək yığılmış məhsulun 3 tona yaxını qurudularaq Şəki-Azəri korporasiyasına təhvil verilmişdir. Hazırda 50 tondan artıq yaş tütün qurudulmaqdadır.

Rayonda heyvandarlığın inkişaf etdirilməsinə də ciddi diqqət yetirilir. Bu məqsədlə həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verir. Belə ki, bu istiqamətdə aparılan işlər nəticəsində iribuynuzlu mal-qaranın baş sayı 39150-yə, xırdabuynuzlu heyvanların baş sayı isə 198 min 260-a çatdırılmışdır. Cari iln 9 ayı ərzində rayon üzrə 3 min 835 ton ət, 31 min 165 ton süd, 19 miyon 853 min ədəd yumurta və 397 ton yun istehsal edilmişdir.

Hazırda rayonun əməksevər insanları yetişdirdikləri məhsulu vaxtında yığıb tədarük etmək üçün əllərindən gələni əsirgəmirlər. Onlar havaların əlverişli keçməsindən istifadə edərək hər gün səhər tezdən əkin sahələrinə çıxır, ildən-ilə inkişaf edən respublikamızın ərzaq təminatında üzərlərinə düşən işi vaxtında yerinə yetirməyi özlərinin vətəndaşlıq borcu hesab edirlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Gübrənin satış qiyməti ucuzlaşıb

"Aqroservis" Açıq Səhmdar Cəmiyyəti fermerlərin gübrəyə olan tələbatını və əlçatanlığını təmin etmək məqsədilə ammofos gübrəsinin qiymətində endirim edib.

ASC tərəfindən satılan bu gübrənin 1 tonunun qiyməti 1000 manatdan 933,33, "Fermer kartı"ndan çıxarılan məbləğ (70 faiz) 1 kisənin qiymətinə görə 35 manatdan 32,67, fermerin öz vəsaiti hesabına ödədiyi 30 faiz məbləğ isə 15 manatdan 14 manata endirilib.

Yeni subsidiya qaydalarına əsasən, gübrə alışında 70 faiz güzəşt fermerin "Fermer kartı"nda olan subsidiya məbləğindən, 30 faiz dəyər fermerin şəxsi vəsaiti hesabına, pestisidlər üçün tam dəyər "Fermer kartı"nda olan subsidiya məbləğindən ödənilir.

Hazırda ASC tərəfindən rayon mərkəzindən uzaq məsafədə yerləşən kəndlərdə mövsümi mineral gübrələrin (ammofos, kükürdlü ammofos, ammonium-nitrat, ammonium-sulfat, kalium-sulfat, karbamid və nitroammofoska) güzəştli şərtlərlə səyyar satışı həyata keçirilir. Səyyar satışın təşkilində məqsəd fermer və sahibkarların məsafə və əlavə məsrəf itkisinə yol verməməsidir. "Aqroservis" ASC-nin əməkdaşları bir çox hallarda satılan gübrələrin evlərə pulsuz çatdırılmasını təmin edirlər.




Səyyar satış zamanı vətəndaşlar yeni subsidiya qaydalarına əsasən heç bir əlavə sənəd təqdim etmədən, yalnız "Fermer kartı" və şəxsiyyət vəsiqəsi təqdim etməklə mineral gübrə əldə edə bilirlər.

## Naftalandakı park günəş batareyaları ilə işıqlandırılacaq

Unikal sağlamlıq mərkəzi olan Naftalanın abadlaşması və müasirləşməsi, əhalinin və turistlərin rahatlığının təmin olunması istiqamətində başlanan quruculuq işləri davam edir.



Şəhərdə hər gün yeniliyin şahidi olmaq mümkündür. Bu yaxınlarda isə şəhərdə yeni pilot layihənin icrasına başlanmışdır. Belə ki, illərdən bəri zəif işıqlandırılan ən böyük parklardan biri - Qələbə parkında yerli və xarici istehsalçıların birgə məhsulu olan alternativ işıqlandırma sistemi quraşdırılır.

Yeni işıqlandırma sistemi günəş enerjisi ilə qidalanan lampa və "solar" batareyaları ilə təchiz olunmuşdur. Hazırda parkda quraşdırma işləri başa çatmaq üzrədir və nəzərdə tutulur ki, gələcəkdə şəhərin digər ərazilərində də belə sistemin yaradılması həyata keçirilsin.

Söz yox ki, alternativ enerjidən istifadə elektrik enerjisinə qənaət etməklə yanaşı, şəhər əhalisinin və turistlərin axşam saatlarında istirahət etmək və asudə vaxtlarını səmərəli keçirmək üçün Qələbə parkına üz tutmalarına imkan verəcək.

### Burzubənd kəndində yeni məktəb binası tikilib

Yeni dərs ilində rayonun daha üç kəndində müasir tipli yeni məktəblər inşa olunmuşdur. Burzubənd kəndində 360 şagirdlik ikimərtəbəli məktəb binasının inşası, Şəvqo və Xıçaso kəndlərinin hər birində isə 40 şagirdlik modul tipli məktəblərin quraşdırılması başa çatmışdır.

Ötən ilədək Burzubənd kəndində yararsız vəziyyətə düşmüş, darısqal, köhnə məktəb binasında tədris aparılırdı. Belə şəraitdə məşğələlərin səviyyəsi pedaqoji kollektivin narahatlığı, valideynlərin narazılığına səbəb olurdu. Yeni istifadəyə verilən, hər cür inventar və avadanlıqlarla təmin olunan binada isə şagirdlərin yüksək səviyyədə bilik alması üçün bütün imkanlar vardır.

Onu da qeyd edək ki, Burzubənd kəndində yeni məktəb binasının inşası son illər burada həyata keçirilən çoxsaylı sosial layihələrdən biridir. Kəndə gələn avtomobil yolu asfaltlaşdırılmış, təbii qazın verilməsi təmin edilmişdir. Lovayın su anbarından kəndə suvarma suyunun verilməsi üçün 500 tonluq su anbarı tikilmişdir.

## Astaradan xəbərlər var

### Asxanakəran və Hamoşam kəndlərində abadlıq işləri davam edir

Hələ ötən əsrin 60-70-ci illərində Lerik rayonu ərazisindən Asxanakəran və Hamoşam inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə çəkilən elektrik xəttinin istismar müddəti başa çatdığından bu kəndlərə elektrik enerjisi verilişində yaranan fasilələr əhalinin haqlı narazılığına səbəb olurdu.



Problemin aradan qaldırılması üçün rayon rəhbərliyi aidiyyəti qurumlarla birlikdə yaşayış məntəqələrini Astara rayonundan elektrik enerjisi ilə təmin etmişdir. Bu məqsədlə Taxtanakəran kəndindən Motalayataq kəndinədək 13 kilometr uzunluğunda elektrik xəttinin çəkilişi başa çatdırılmış və elektrik enerjisinin verilişinə başlanmışdır. Bundan əlavə, rayon icra hakimiyyətinin köməyi ilə Hamoşam və Rıvadila kəndlərində Bəşərü çayı üzərində uzunluğu 12, eni 4 metr olan dəmir konstruksiyalı iki avtomobil körpüsü tikilərək bu günlərdə istifadəyə verilmişdir. Toradi kəndində isə Baba Rəsul ziyarətgahına gedən avtomobil yolunda təmir işləri aparılmışdır. Hamoşam kəndində Yaponiya səfirliyi tərəfindən inşasına başlanmış həkim məntəqəsinin tikintisi isə hazırda davam edir.

### Ərçivan qəsəbəsində körpələr evi-uşaq bağçası müasir binaya köçmüşdür

Ərçivan qəsəbə körpələr evi-uşaq bağçası 1977-ci ildə sovxoz tərəfindən inşa olunmuş birmərtəbəli binada fəaliyyət göstərirdi. Bağçanın binası köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Bu ilin yanvar ayında Heydər Əliyev Fondunun vəsaiti hesabına Ərçivan qəsəbə körpələr evi-uşaq bağçası üçün 80 yerlik müasir tipli binanın inşasına başlanmış, sentyabrda tikinti işləri başa çatdırılmışdır.

Bağçada yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı, eləcə də digər inzibati və texniki otaqlar var. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz olunub.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları quraşdırılıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***






# Gənclik






● Gələcəyə dəstək



# Bizi güclü edən milli-mənəvi dəyərlərimizdir

## İlham ƏLİYEV: "Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq"

**Respublika gənclərinin istər istehsalatda, istərsə idman və mədəniyyət sahələrindəki uğurları son illər dinamik şəkildə artmaqdadır. Bundan başqa, onların hərbi-vətənpərvərlik, mənəvi-ideoloji tərbiyəsinə, sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Cəmiyyətdə əhəmiyyətli çoxluğa malik təbəqə kimi gənclərin ehtiyaclarının ödənilməsi məsələsi isə hazırda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.**

Bu, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirməsinin bəhrəsidir. Ümummilli Liderin təşəbbüsü ilə hələ sovetlər birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülmüş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşmasına başlanmışdır.

Bugünkü gəncliyin potensialının üzə çıxarılması və onlardan maksimum istifadə isə dövlət gənclər siyasətinin əsasını təşkil edir. Məhz bunun nəticəsidir ki, onlar Azərbaycanı istər ölkə daxilində, istərsə də beynəlxalq miqyaslı tədbirlərdə uğurla təmsil edirlər.

Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması ölkəmizin davamlı inkişafının təminatıdır. Deməli, gəncliyin əsas yolu və vəzifəsi, ilk növbədə, dövlət başçısının ətrafında daha sıx birləşərək, azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməkdir.

Gənclər üçün əsas istiqamət, əlbəttə, təhsildir. Məhz bu prizmadan yanaşaraq dövlət başçısı hesab edir ki, təhsilə çox böyük diqqət yetirilməlidir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə çalışmalıdırlar ki, öz karyeralarını qursunlar. Onlar milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Məhz bu yanaşmanın nəticəsidir ki, Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsinə çevrilib. Azərbaycan Prezidenti gənclərlə, xüsusilə də elm və təhsil müəssisələrində keçirdiyi görüşlərdə vurğulayır ki, ölkədə tərbiyə işi yeni müstəviyə qalxmalı, ideoloji işə yenidən baxılmalıdır. Azərbaycanı istəməyən qüvvələr, o cümlədən erməni lobbi təşkilatları tərəfindən maliyyələşən qurumlar bundan istifadə edirlər: "Gənclər özləri də tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik..."

Dövlət başçısının gənclərlə bağlı fikir və arzularını dilə gətirməsi, bu istiqamətdə yürüdülən siyasətin vacibliyi göz önündədir. Azərbaycan Prezidenti haqlı olaraq gənclərimizi bilikli, savadlı görmək istəyir, çünki onların təminatlı gələcəyini müəyyən edən budur - vətənpərvərlik!

Məhz bu amildən yanaşaraq, Prezident ölkəmizin gələcəyi hesab edilən gənclərdə vətənpərvərlik hissinin daha güclü olmasını istəyir: "Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin".

Azərbaycan Prezidentinin regionlara növbəti səfərində də bu vacib məsələ diqqətdə saxlanılır. "ASAN xidmət"lər vasitəsilə gəncliyin potensialından istifadənin əhəmiyyəti dilə gətirilir. Çünki bu sahədə çalışanların mütləq əksəriyyəti gənclər, yeni nəslin nümayəndələridir. Burada onlar yeni baxış, təfəkkür, mədəniyyət nümunəsi göstərirlər.

Azərbaycanda könüllülər hərəkatı da, bildiyimiz kimi, "ASAN xidmət"dən başlayıb. Bu gün bir çox sahələri əhatə edən bu xidmət növü də gənclərimizin nəyə qadir olduğunu ortaya qoyur. Azərbaycan Prezidentinin tövsiyə və göstərişləri əsasında dövlət qurumlarında gənclərdən ibarət könüllülər dəstələri və qruplarının yaradılma prosesləri arxada qalıb. Artıq bəzi nazirliklərdə bu qruplar çoxdan fəaliyyətə başlayıb. Respublikamızda son illər bir-birinin ardınca keçirilən bütün beynəlxalq tədbirlərdə, o cümlədən Birinci Avropa və İslam oyunlarında gənc könüllülər çox böyük xidmət göstəriblər. Minlərlə gənc bu təlimlərdən keçiblər.

Gənclər gələcəkdə elə çalışmalı və fəaliyyət göstərməlidirlər ki, onlara göstərilən etimadı doğrultsunlar, bunun da müqabilində ölkədə inkişaf dayanıqlı, dövlət müstəqilliyimiz əbədi olsun.

Bizi bir xalq, bir millət kimi əsrlər boyu assimilyasiyadan qoruyan milli dəyərlərimizdir. Odur ki, ana dilimizi, ədəbiyyatımızı, incəsənətimizi və milli şüurumuzu heç vaxt itirə bilmərik. Ölkə rəhbəri deyir: "Nə qədər ki, mən Prezidentəm, var gücümlə çalışacağam ki, bu dəyərlər tam bərqərar olsun, o cümlədən gənclər arasında. Bizim hamımızın birinci vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək, Azərbaycan dövlətinin qüdrətini artırmaq və öz milli xüsusiyyətlərimizi qorumaqdır".

*Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"*

● İnkişaf təhsildən başlayır

# Məqsədə doğru

**İnsanın arzuları çoxdur. Ağlım kəsəndən məni düşündürən və evdə də böyüklərin ən çox söylədikləri təhsillə bağlı nəsihətləridir. Çünki bilik, savad, bacarıq səni həmişə qoruyan, çətinliklərdən qurtaran əsas vasitədir. Son illər ölkə rəhbərliyi tərəfindən gənclərin təhsilinə, vətənpərvərlik tərbiyəsinə, yüksək səviyyəli mütəxəssis kadrlar kimi yetişdirilməsinə xüsusi diqqət göstərilir.**

Aparılan islahatlar nəticəsində Azərbaycanın müasir təhsil modeli yaranıb. Minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində ölkəmizin inkişafına töhfə vermək üçün peşəkar mütəxəssis kimi yetişir. Bu gün yaşadığımız modern cəmiyyətin əsas güc mənbəyi zamanı qabaqlayan elm, təhsildir. "Mən şadam ki, bu gün bizim gənclərimiz biliklərə çox meyillidirlər. Gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, gələcəkdə ölkəmizi idarə etsinlər", - deyən ölkə rəhbəri bizlərə vətəndaş olmağın meyarlarını anladır, cəmiyyət üçün faydalı işlərin yollarını göstərir.

Sumqayıtda doğulub-böyüsəm də, əslən Qubadlıdanam. Qubadlı barədə böyüklərimdən eşitmişəm. Yaşadığım və böyüdüyüm mühit həmişə vətən sevgisini, dövlətə inamı, keçmişdən gələn kökümüzün qorunmasını bizə miras kimi aşılayıb. Ailəmizdə işğal altında olan yurd yerlərimizdən danışanda həmişə göz yaşlarını saxlaya bilməyən valideynlərimi görmüşəm.

Qaçqın ömrü yaşamaq o qədər də asan deyil. Elindən, obasından ayrı düşmək o deməkdir ki, insanın bir üzü gülsə də, o biri üzü həmişə ağlayır.

Təhsil aldığım (Sumqayıtda yerləşən) Qubadlı rayonunun şəhər 3 saylı tam orta məktəbində çalışan müəllimlər ilk günlərdən bizlərə öyrədirlər ki, bilik, elm və savad



hər bir insanın ömrünün sonuna qədər daşıdığı var-dövlətdir. Onu səndən heç kim ala bilməz. Qeyd edim ki, Qubadlı rayonunun şəhər 3 saylı tam orta məktəbində müasir dövrün tələblərinə cavab verən dərs otaqları, kitabxana, laboratoriyalar var, tədris korpusu kompüter ləvazimatları ilə tam təchiz edilib.

Hələ aşağı siniflərdə oxuyanda hərə öz gələcək arzusundan söhbət açardı. Məktəbli həmyaşıdlarımızla daha çox texniki fənlərə üstünlük verər, müəllimlərimizlə diskussiyalar keçirərdik. Məktəbimizin direktoru Gözəl Abdullayeva, müəllimlərim Elvira Süleymanova, Gülnarə Quliyeva, Afət Məmmədova bizdə dərslərə olan marağımızı bir qədər də artırdı.

Son siniflərdə hansı ixtisasa yiyələnəcəyimi dəqiqləşdirdim və Bakı Ali Neft Məktəbinə daxil olmağı qərara aldım. Keçirilən qəbul imtahanlarında 671,3 bal toplamışam. İnanın ki, əgər zəif nəticə göstərsəydim, gələn ilin qəbuluna hazırlaşacaqdım. Yaxşı ki, zəhmətim hədər getmədi.

İnformasiya təhlükəsizliyi ixtisasını seçmişəm. Bilikli mütəxəssis kimi ölkəmizin İKT sahəsində olan inkişafında əhəmiyyətli yer tutmaq əsas istəyimdir. Bu gün biz gənclərin ən böyük vəzifələrindən biri oxumaq, öyrənmək, müasir dövrün bilik və bacarıqlarına yiyələnməkdir. Cəmiyyətimizin gələcəyi bu dəyərlər ruhunda formalaşır.

*Aytac KAZIMLI, Bakı Ali Neft Məktəbinin tələbəsi*

● Peşə hazırlığı

# Əmək bazarına açılan qapı

**Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsi əhalinin səmərəli məşğulluğunun təmin edilməsidir. Bu sahədə aparılan işlər, əldə olunan nəticələr sosial rifahda əsas rola malikdir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən aktiv məşğulluq tədbirləri ildən-ilə gücləndirilir və geniş miqyas alır. Agentlik ötən il 103 028 işsiz və işaxtaran şəxsi münasib işlərlə təmin edib, özünüməşğulluq proqramına ötən il 10 354 nəfər cəlb edilib.

Bu ilin yanvar-avqust aylarında da dövlətin vətəndaş rifahına istiqamətlənən siyasətində məşğulluğa dəstək xüsusi yer tutub. Agentlik tərəfindən 75 minə yaxın şəxs işlə təmin olunub. Özünüməşğulluq proqramının genişləndirilməsi çərçivəsində minimum 12 min ailənin təsərrüfatının qurulması işləri aparılır ki, həmin ailələrin də 50 min üzvü var. Artıq son günlər 450 şəxsə aktivlər verilib. Dövlət başçısının tapşırığı ilə ödənişli ictimai iş yerlərinin sayı 38 mindən 90 minə çatdırılıb. Bu proqram da məşğulluq imkanlarının artırılmasında önəmli rola malikdir.

Qeyd edilənlərlə yanaşı, Azərbaycanın malik olduğu inkişaf strategiyasının əsas cəhətlərindən biri - işçi qüvvəsinin əmək bazarının inkişafına uyğun rəqabət qabiliyyətinin artırılması, işsiz və işaxtaranların əmək bazarına çıxışının asanlaşması üçün onların peşə-əmək qabiliyyətlərinin işəgötürənlərin tələblərinə uyğunlaşdırılmasıdır. Ərazi Məşğulluq mərkəzlərində işsiz və işaxtaran kimi qeydiyyata alınmış vətəndaşlar peşə və ya ixtisaslara malik olmadıqda, yaxud peşə vərdişlərinə uyğun gələn iş tapılmadığı təqdirdə onlar üçün əmək bazarına çıxış imkanına yiyələnmələri məqsədilə işəgötürənlərin mövcud tələblərinə uyğun peşələr üzrə hazırlıq və əlavə təhsil kursları təşkil edilir.

Bu gün Dövlət Məşğulluq Agentliyi tərəfindən belə gənclər üçün əmək bazarının tələblərinə uyğun 140-dan çox peşə üzrə hazırlıq kursları var. Onların bir hissəsi modul təlim proqramları əsasında aparılır. Agentliyin Bakı və Göyçay şəhərlərindəki Regional Peşə Təhsili Mərkəzləri mühüm maddi-texniki potensiala malik olmaqla peşə hazırlığı işinin təşkilində əhəmiyyətli rol oynayır. Peşə hazırlığı kurslarına cəlb edilənlərin 73 faizi həmin mərkəzlərin payına düşür. Ölkədə Regional Peşə Tədrisi Mərkəzləri şəbəkəsinin respublikanın bölgələri üzrə genişləndirilməsi işləri çərçivəsində 2019-cu ilin dekabr ayında Gəncə şəhərində də Peşə Hazırlığı Mərkəzi yaradılıb.

Yaxın vaxtlarda Quba və Bərdə rayonlarında da belə mərkəzlərin istifadəyə verilməsi planlaşdırılır. Məqsəd həmin bölgələrdə işsiz və işaxtaran vətəndaşlar, xüsusilə gənclər üçün müasir tələblərə uyğun peşə hazırlığı infrastrukturunun formalaşdırılması, bu sahədə xidmətin keyfiyyətinin və bölgədə yaşayan müvafiq şəxslərə əlçatanlığının artırılmasıdır.

Prezident İlham Əliyevin 2018-ci il 30 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nda işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi əsas prioritetlər sırasında yer alıb. Strategiyada bu istiqamətdə müəyyən edilən hədəflər arasında 2019-2030-cu illər ərzində Azərbaycanda regional peşə tədrisi mərkəzlərinin sayının 10-a çatdırılması da nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, 2019-cu ildə nazirliyin xətti ilə ümumilikdə 3400-ə yaxın şəxs (o cümlədən Dövlət Məşğulluq







Agentliyi tərəfindən 3168 nəfər, nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi tərəfindən 227 nəfər), 2018-2019-cu illərdə təqribən 6 min nəfər peşə hazırlığına cəlb olunub. Kurslarda aşpaz, qənnadçı, dərzi, xalçaçı, kompüter mühasibliyi, qazanxana maşinisti, kompüterçi dizayner, ingilis dili, ekskursiya bələdçisi, elektrik quraşdırıcısı, əl ilə qaynaq, əməliyyatçı mühasib, vizajist, kişi bərbəri, bərbər-manikürçü peşələri tədris edilib. Kursu bitirənlərə peşə sertifikatları verilib.

Cari ildə pandemiya səbəbindən bu sahədə peşə kurslarında fasilə yarandı. Lakin bu ilin ilk aylarında pandemiyaya qədərki dövrdə artıq 800 nəfər peşə hazırlığı kurslarına cəlb olunub. Təbii ki, pandemiya ilə əlaqədar sosial dəstək tədbirləri peşə hazırlığı prosesində fasilə yaranmış kursların müdavimlərini də əhatə edib. Nazirlər Kabinetinin Qərarına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin şəxslərə fasilə yaranmış dövr üzrə təqaüdlərinin ödənişi təmin olundu. Peşə hazırlığına cəlb olunanlara hər ay minimum əməkhaqqı qədər (250 manat) təqaüd verilir.

Bir faktı da qeyd edək ki, işəgötürənlərə də peşə hazırlığı kurslarının təşkilində Dövlət Məşğulluq Agentliyi ilə əməkdaşlıq imkanı yaradılıb. İşəgötürənlərin sifarişi ilə bir sıra kurslar da təşkil olunub.

Gələn il Dövlət Məşğulluq Agentliyi tərəfindən 9 min nəfərin peşə hazırlığına cəlb edilməsi nəzərdə tutulur. Bununla bərabər, agentlik peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində növbəti ildən beynəlxalq sertifikatlı (İSO) mütəxəssis hazırlığına başlayacaq. Agentlik 2021-ci ildə 3 min nəfər İSO (Keyfiyyət idarəetmə sistemləri üzrə) standartlarına uyğun mütəxəssis hazırlığını təmin etməyi planlaşdırır.

Bu, istehsalatda innovativ texnologiyaların tətbiqinin geniş vüsət aldığı şəraitdə işçi qüvvəsinin həmin standartlar əsasında rəqabət qabiliyyətinin artırılması məqsədinə xidmət edir. Həmin mütəxəssis hazırlığının təşkili üçün hazırda beynəlxalq tərəfdaşlarla da müzakirələr aparılır. Keyfiyyət idarəetmə sistemləri üzrə hazırlanmış mütəxəssislər həm yerli, həm də xarici şirkətlərdə müvafiq peşə-ixtisas sahələri üzrə işləmək bacarığına malik olacaqlar.

İşaxtaran vətəndaşlar və gənclər üçün peşəyönümü tədbirlərinin təşkili davam etdirilir. Ötən il agentlik tərəfindən 135 minədək gəncə işəgötürənlərin peşə və ixtisaslara olan tələbləri, məşğulluq xidmətləri, aktiv məşğulluq tədbirləri barədə məlumatlar verilib, əmək bazarının tələblərinə uyğun düzgün peşə seçimləri məqsədilə peşəyönümü xidməti göstərilib. Peşəyönümü xidmətinin əsas hədəf qrupları rayon (şəhər) Məşğulluq Mərkəzlərində qeydiyyatda olan işaxtaran vətəndaşlar, gənclər, orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri, sosial müdafiəyə xüsusi ehtiyacı olan əhali qrupları, ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil alanlar, orta-ixtisas və ali təhsil müəssisələrinin tələbələridir. Peşəyönümü tədbirləri onlara düzgün peşə seçimində dəstək olur ki, bu da gənclərin gələcəkdə əmək bazarında özlərinə yer tutmalarına imkan yaradır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yeni peşə və kvalifikasiya standartlarının hazırlanması prosesi davam etdirilir. Bu prosesdə beynəlxalq və yerli mütəxəssislərlə yanaşı, işəgötürənlərin iştirakına da xüsusi önəm verilir. Peşə standartları işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusudur. Həmin standartlar əmək bazarının tələblərinə uyğun kadr hazırlığının təşkilində, işçi qüvvəsinin keyfiyyətinin artırılmasında və beynəlxalq standartlara uyğunlaşdırılmasında baza rolunu oynayır.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

● Tribuna

# Vətənimizi və xalqımızı layiqincə təmsil etməliyik

## Azərbaycan dövləti gəncliyin inkişafı üçün hər cür şərait yaradıb

**Azərbaycan Prezidenti İlham Əliyey yeni tədris və Bilik Günü münasibətilə xalqımızı, o cümlədən müəllim, tələbə və şagirdləri təbrik edərkən bir daha vətənpərvərliyin, elmli-bilikli olmağın vacibliyini gənc nəslin diqqətinə çatdıraraq bildirdi ki, bu gün bizim gənclərimiz biliklərə çox meyillidirlər.**

Onlar bilikli, savadlı olmalıdırlar ki, göstərilən etimadı doğrultmaqla, ölkəmizi idarə etsinlər: "...Bizim gələcəyimiz bu gün məktəblərdə, ali məktəblərdə oxuyan uşaqların, şagirdlərin, tələbələrin əlində olacaqdır. Onların bilikləri, savadı, əlbəttə ki, bizim ölkəmizin gələcəyini şərtləndirəcək. Eyni zamanda onu da xüsusi qeyd etməliyəm ki, bizim gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər - ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalıdırlar. Burada, əlbəttə ki, ailələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda bütün məktəblərdə müəllimlər şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etməlidirlər..."

Dövlət başçısının müraciətində biz gənclərin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət, milli-mənəvi dəyərlərimizə hörmət ruhunda formalaşdırılmasına bir çağırış vardı. Böyüməkdə olan yeni nəsilin Azərbaycanın daha qüdrətli inkişafında mühüm rol oynadığı, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqə olduğu xüsusi vurğulanırdı. Ona görə də istər valideynlər, istərsə onların Vətən üçün yetişdirməli olduğu gənclər də daim aktual olan bu məsələyə məsuliyyətlə yanaşmalıdırlar.

...Laçın rayonundan məcburi köçkünəm. Bakı şəhərində müvəqqəti məskunlaşmış ailəmiz beş nəfərdən ibarətdir. Atam Nəriman Zeynallı coğrafiya mütəxəssisi, Qarabağ müharibəsi veteranıdır. Anam Şəfəq Qorçuyeva riyaziyyat müəllimidir və bir pedaqoq kimi nailiyyətlərimdə rolu böyükdür. Bacılarım Mehriban və Səbinə də uğurları çox olan gənclərdəndirlər. Böyük bacım Mehriban Azərbaycan Tibb Universitetini başa vurub, Türkiyədə uzman həkim kimi fəaliyyət göstərir. Səbinə isə Bakı Dövlət Universitetini bitirib, Türkiyədə Psixologiya ixtisası üzrə magistratura təhsili alır.

Orta təhsilə Bakıdakı 81 saylı məktəbdə başlamışam, sonra Avropa Azərbaycan Məktəbinin qəbul imtahanında 1-ci yer tutaraq ödənişsiz təhsil almaq haqqını qazanmışam. Bu məktəbin ilk məzunlarındanam. Avropa Azərbaycan Məktəbində təhsil aldığım müddətdə ölkədaxili və



beynəlxalq səviyyədə keçirilən fənn olimpiadalarında fəal iştirak etmişəm.

2014-cü ildə Türkiyənin Antalya şəhərində keçirilən "VI Beynəlxalq Fənn Olimpiadası"nda coğrafiya üzrə 11-ci siniflər arasında 1-ci yeri tutaraq qızıl medala layiq görülmüşəm. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "İstedadlı Uşaqlar Festivalı-2015" layihəsində qazandığım uğurlara görə diplomla təltif olunmuşam.

2015-ci ildə ali məktəblərə qəbul imtahanında 677 bal toplayaraq ADA Universitetini seçmişəm. Dövlət başçısının 14 sentyabr 2015-ci il tarixli sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşəm. Burada təhsil aldığım müddətdə ictimai fəallardan hesab edilmişəm. 2016-cı ilin yayında Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının "Çənlibel" IX Liderlik Məktəbinin qalib iştirakçılarından biri olduğum üçün qürur hissi keçirmişəm.

2 il ADA-da oxuduqdan sonra təhsilimi ölkə xaricində davam etdirməyə qərar verdim. Hazırda Avropanın iqtisadiyyat üzrə qabaqcıl ali təhsil müəssisələrindən olan, İtaliyanın paytaxtı Roma şəhərində təhsilimi davam etdirirəm. Malta və Polşada Erasmus tələbə mübadiləsi proqramında iştirak etmişəm. Əsas məqsədim gələcəkdə iqtisadiyyat sahəsində yüksəkixtisaslı kadr kimi yetişərək ölkəmizin davamlı və dayanıqlı iqtisadi inkişafına öz töhfəmi verməkdir.

Bütün bunlar bir gənc, tələbə olaraq mənim keçdiyim hələ ki, qısa hesab edilən həyat yolumda qazandığım cüzi də olsa uğurlarımdır. Buna görə Azərbaycan gəncliyinin hərtərəfli inkişafına şərait yaratdığına, inandığına və güvəndiyinə görə Prezidentimiz İlham Əliyevə, eyni zamanda, Heydər Əliyev Fondunun xətti ilə uşaq, yeniyetmələrə, eləcə də ali təhsil alan gənclərimizə diqqət və qayğısını əsirgəməyən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdaram.

*Murad ZEYNALLI, İtaliyanın Roma şəhərindəki Tor Vergata Universitetinin magistrantı*





# Ədəbiyyat





● Əbdürrəhim bəy Haqverdiyev - 150

**İlk nəsr nümunələrinin birində, “Ata və oğul” hekayəsində dilə gətirdiyi bu işıqlı sözlər Əbdürrəhim bəy Haqverdiyevin öz ömrünün də həqiqəti oldu. Dramaturgiyasına nisbətən nəsrinin həyatının daha sonrakı dövrlərinə aid olduğunu nəzərə alsaq, bu fikirlərin ömür təcrübəsinin səsi ilə qələmə alındığını, zaman-zaman həyat amalına çevrildiyini düşünməkdə haqlı olarıq. Onun yaşam məqsədinin yaxşı-pis nədən ibarət olduğunu aydın dərk etməyi bacaran qəhrəmanları hətta rəhmətə layiq olmayan rəhmətliklər olsalar belə yenə “diri”dirlər və çağın adamıdırlar. Ədib üçün ömür payını vicdanla yaşamaq, doğru düşünə, duya bilmək, ətrafına fayda göstərmək, bir sözlə, insan olmaq hər şeydən önəmlidir və onun bütün yaradıcı təxəyyülü məhz bu özülün üzərində formalaşmışdır.**

**Ə.Haqverdiyevin şəxsi arxivi, məktubları, tərcümeyi-halı, həyat və yaradıcılığının bəzi məqamları haqqında təqdim etdiyi aşkar faktlar arxasında daha dərin, çoxmənalı gizlinlərin dayandığını görməmək olmur. Bir tərəfdən yaşadığı dövrün, mühitin tələbi belə idisə, bəzi məqamlarda bu xüsusiyyətin həm də ədibin oxucusunu, dinləyicisini düşündürmək, “huşyar olmağa”, kəşf etməyə meyilləndirmək istəyindən də irəli gəldiyini düşünürsən.**



# *Əbdürrəhim bəy HAQVERDİYEV:* aşkarlar və gizlinlər arasında

## “Xoş o şəxsin halına ki, öləndən sonra onun adı dillərdə diri qala, ehtiram və rəhmətlə yad ola”

“Təvəllüdüm 1870-ci ilin may ayının 17-ci günündə Şuşa şəhərinin 20 kilometrliyində vaqe Ağbulaq kəndinin civarında Dolus bulağı adlanan çeşmənin kənarında. Atam Əsəd bəy və anam Hüsnü Cahan xanımdır” (“Tərcümeyi-halım”). Ə.Haqverdiyev nəslinin, atasının şəxsiyyəti, sosial statusu haqqında tərcümeyi-halında ətraflı məlumat verməsə də, babasının , atasının, əmilərinin savadlı, maarifçiliyə meyilli bəylər olduğunu, atası Əsəd bəyin Şuşa prokurorluğunda məsul vəzifə icraçısı kimi çalışdığını arxivində qoruyub saxladığı sənədlər, məktublar təsdiq edir. Körpə ikən atasını itirdiyindən əvvəl atasının əmisi, dövrün maarifçi ziyalılarından sayılan Əbdülkərim bəyin, sonra atalığı Həsənəli bəy Sadıqovun himayəsində yaşayıb tərbiyə almışdır. Şuşada dövlət dəftərxanasında rus dilindən tərcüməçi işləyən Həsənəli bəy Əbdürrəhimi müasir ruhlu bir şəxsiyyət kimi yetişdirmək istəyi ilə Şuşada 1881-ci ildə açılmış dünyəvi elmləri tədris edən altı sinifli real məktəbə qoymuşdu. 1891-ci ildə Şuşada təhsilini başa vuraraq Tiflisdə 1 saylı gimnaziyanın son VII sinfinə daxil olmuşdur. Öyrənməyə, təhsilə meyilli gəncin altıillik ibtidai təhsili sənədlərin göstərdiyi kimi on ilə tamamlaması səbəbi naməlum qalsa da, Əhməd bəy Ağaoğlunun xatirələri məsələyə müəyyən qədər aydınlıq gətirir. Ə.Ağaoğlu 1881-ci ildə Ə.Haqverdiyev kimi bu məktəbə qəbul olunan ilk azərbaycanlı şagirdlərdən biri olduğunu, məktəbdə təhsil alan cəmi beş nəfər türkəsilli şagirdin daim ermənilərin zorakılığına məruz qaldığını yazır: “Bu beş adamın illərlə davam edən təhsili zamanı erməni uşaqlarından çəkdiklərini sözlə ifadə etmək imkansızdır. Tənəffüsdə biz, beş türk uşağı cəld tərpənib arxamızı divara dayamağı böyük bir fərasət hesab edirdik. Yüzlərlə erməni uşağı birdən üzərimizə hücum edir, birisi başımızdan papağı alıb atır, digərləri təpiklə dörd, beş altun qiymətində olan Buxara dərisini torpaqlar üzərində yuvarlayırlar... Yoldaşlarımdan çoxu dayana bilməyib məktəbi tərk etdilər. Son sinfə qədər türklərdən bir mən dayana bildim”.

Çox güman ki, “dayana bilməyib məktəbi tərk edənlər” içərisində həssas duruma malik Əbdürrəhim bəy də var imiş, amma yenə də bütün çətinliklərə rəğmən məktəbə qayıdaraq təhsilini başa vurmağa nail olmuş, orta təhsilin son sinfini Şuşa ermənilərinin azğın icmasına nisbətən yumşaq mühitdə, Tiflis gimnaziyasında yekunlaşdırmışdır. Əhməd Ağaoğlunun yazdığına görə 1887-ci ildə təhsilini davam etdirmək üçün Peterburqa gedir və orada tanış olduğu qafqazlı gənclər onu Qafqazlı Tələbələr Birliyinin yataqxanasına aparırlar. Dörd il sonra bu institutun tələbəsi olan Əbdürrəhim bəy Haqverdiyev tərcümeyi-halında belə yazırdı: “1890-cı sənədə Şuşada və 1891-ci sənədə Tiflisdə realni məktəbi bitirib ali təhsil üçün Peterburqa getdim. Peterburqda əvvəl Yollar institutuna daxil olub və sonra bir para səbəblərdən oradan darülfünunun Şərq şöbəsinə keçib, 1899-cu sənədə ikmali-təhsil alıb Qafqaza qayıtdım”.

Şuşada eyni vaxtda eyni məktəbdə təhsil alan Ə.Ağaoğlu və Ə.Haqverdiyevin Bakıda, Tiflisdə fəaliyyət dövrləri də bəzən eyni zaman kəsiminə təsadüf edir və doğma xalqının heysiyyatını hər şeydən uca tutan, mənəviyyatına, mədəniyyətinə canla-başla xidmət göstərən bu iki şuşalının bir-birini tanımaması, bir-birilə ünsiyyətsizliyi şübhə doğurur. Ə.Ağaoğludan fərqli olaraq, Ə.Haqverdiyevin məqalələrində, bədii əsərlərində ictimai-siyasi və daha çox milli məsələlərə nisbətən ehtiyatla yanaşdığını müşahidə etmək olar. Daha çox adi, sadə insanların həyatının, yaşam tərzinin, dünyagörüşünün yazarı olmağa, onların gözü ilə “görməyə”, dili ilə “danışmağa” çalışır. “Mozalan bəyin səyahətnaməsi”ndə ədib Gəncə vağzalında jurnal vərəqləyən bir yerlinin dilindən yazır: “Neyləyirsən savadı, məgər mənim savadım var? Budur, bu qəzetəyə məndən iki şahı pul alıblar, üstünün böyük yazılarını güclə, hıqqına-hıqqına bir tövr oxuyuram, onun da mənasını anlamaram, burada yazılıb “Şutyonok”, indi Allah bilsin nə sözdür, ancaq kimdir qəzetin adına baxan, dadına bax. Gör necə bədənlər çəkiblər, indi başına daş düşmüş müsəlman belə surətləri görüb dinindən dönəndə deyirlər: “dəli olub”. Mən ölüm, rəfiq, bir bu buxağa bax, gör heç ömründə belə şey görübsən?”

Dövrün, dünyanın ictimai-siyasi havasını dərinliklə araşdırmağı bacaran ədib əslində bu epizodla vətəninin anlamaq qabiliyyəti olan hər bir vətəndaşına ictimai durumumuz haqqında ironik bir mesaj göndərmişdi. Moskavada dərc olunan “Şutyonok” (redaktor-naşir A.V.Yemelyanov (Kazanski) 1907-1917-ci illər arasında çarizmi, Rusiya siyasətini amansızlıqla tənqid edən və çarı, onun ailəsinin Qriqori Rasputinə bağışladığı hüdudsuz imtiyazları sarkastik bir şəkildə açıb göstərən və dəfələrlə bu səbəbdən məhkəmələrə, qapadılmaya məruz qalan populyar satirik jurnallardan biri idi. Yazıçı personajının diliylə təsvirinə başladığı qüsurların, milli problemlərin içərisində yerindəcə yeridilmiş bircə detalla ən əsas məsələni, Rusiya dövlətinin bütün dünyada məşhur təcavüzkar, işğalçı daxili və xarici siyasətini, hakimiyyət başındakı çarının ailəsini, xanımlarını, özünü karikatura şəklində göstərən bir dərginin səhifələrindən vətən övladının yalnız qadın şəkilləri axtarmaq səviyyəsində olduğunu nəzərə çatdırmış, anlayan üçün xəcil bir səhnə yaratmışdı. Elə həmin əsərdə xalqın fəxr yeri olan qədim Azərbaycan şəhərinin şərəf nüfuzuna yaraşmayan yeni adına maraqlı bir eyham da var: “bir kişi əlində fanar, gəldi otağı dolana-dolana xəbər verdi: “Yelzavetpol, bilet”. Biletləri yığıb apardı və bir az keçəndən sonra maşın fısıldayıb dayandı. Bura Gəncə imiş”.

Əbdürrəhim bəy Haqverdiyev” Kapitalizmlə mübarizə”, “Dəccalabad”, “Qisas”, “Söhbət”, “Sarı toyuq”, “İanə” və s. əsərlərində olduğu kimi, gündəmin ictimai-siyasi problemlərini daha çox novella və hekayələrində özünəməxsus ironik deyim tərzi ilə qələmə almağa üstünlük vermişdir: “Əddəccalü məhbusun fi təhti Bəhrilxəzər”, yəni Dəccal, Kaspi dənizlərinin altında dustaqdır. Şəkkakə lənət!”, “İranlılar bir qəribə tayfadırlar; hər yerdə olsalar, hökmən gərək aftafaları ilə konsulları yanında olsun”, “Rəhmətlik oğlu, rusun qoşunu Ərdəbildə əyləşib, sən vətən sözünü dilinə gətirirsən? Bəlkə sabah gəlib məktəbi bağladılar (“Dəccalabad”). “Kitablarda yazırlar ki, dəccal xüruc eləyəcək. Xalq Allahdan üz döndərib dəccalın dalına düşəcək. Daha dəccalın xurcu bundan artıq olmaz ki?!” (“Sağsağan”). “Dədə-baba getdi, dilini də özü ilə apardı. Sən göydən düşübsən, nədir? Məgər ətrafı gözlərin görmür? İndi Şura hökumətidir, hər hökumətin bir dili olur” (Sağsağan”). “Kənd yatmışdı. Nə xoruzlardan, nə itlərdən və nə sair heyvandan bir səs çıxmırdı. Qəflətən kəndin ayağında bir xoruz banladı. O saat fikrimə gəldi ki, yəqin sabah bu xoruzun bivaxt banlamağına görə başı cəllad əlində gedəcək: əlbəttə, bir yerdə ki, camaat hamısı yuxuya məşğuldur, küy qalxızıb səs salanın başı gərək kəsilsin!” (“Ayın şahidliyi”).

Onun hekayələrində, xüsusilə də son dövr nəsr nümunələrində əksərən müəllifin öz obrazı var, müəllif hadisəyə giriş verir, “müsahib”lə qarşılaşır, müsahibin portreti, xarakterik keyfiyyətləri barədə qısa və görümlü məlumat çatdırır, danışdığı hadisəyə “qulaq yoldaşı” olur, əsas məzmun və məramı “müsahibin” söylədikləri üzərinə cəmləyir. Söyləyicinin şəxsiyyəti komik, romantik, dramatik mahiyyətli olduğu kimi, söylədikləri də özünə münasib pafosa malik ola bilər, amma bütün məqamlarda “qulaq yoldaşıyla” səmimiyyətin dili ilə danışır, qəbul etdiyi gerçəkliyi söyləyir və bəzən heç gözlənilmədən oxucuya hansısa bir həyat həqiqətinin sirrini açır.

Əbdürrəhim bəy çox az düşüncə adamına xas olan ensikilopedik yazı, fəaliyyət qabiliyyətinə malik olmuşdur. Məşğul olduğu sahənin, münasibət bildirdiyi məsələlərin mahiyyətindən çıxış edərək, yeni, müasir və əhəmiyyətli cəhətlərini axtarıb tapmağa, inkişaf etdirməyə çalışmış, məlumatın dərinliyinə xüsusi önəm verməklə nəzərə çatdırdığı materialın yaşarılığı, öyrədicilik yararının yüksəkliyinə xüsusi diqqət ayırmışdır. Bu baxımdan onun dramaturgiya, teatr sahəsinə gətirdiyi yeni istiqamət metodikası mədəniyyətimizə əvəzsiz xidmətlər kimi dəyərləndirilməlidir. Teatrın Əbdürrəhim bəyin həyat və fəaliyyətinin çox böyük hissəsini əhatə etdiyini, bədii yaradıcılıqda daha çox dramaturgiyaya meyilli olduğunu teatr, dram sənəti haqqında yazdığı dəyərli tədqiqat işləri, məqalələri də sübut edir. Gənclik illərinin marağını sonralar Sankt-Peterburqun sayılan novator səhnələrindən olan “Aleksandriysk” teatrının tamaşaları sayəsində professional səviyyəyə çatdıran ədib ömrünün sonuna qədər bütün çətinliklərə rəğmən bu sahəyə sədaqətlə xidmət etmiş, dünya dramaturgiyasının ən son nailiyyətlərini səhnəmizə gətirməyə səy göstərmişdir. “Yeyərsən qaz ətini, görərsən ləzzətini” komik dramı ilə qədəm basdığı, sonralar “Dağılan tifaq”, “Bəxtsiz cavan”, “Pəri Cadu”, “Ağa Məhəmməd şah Qacar” kimi monumental faciələri, bir sıra irili-xırdalı dram əsərləri ilə zənginləşdirdiyi milli dramaturgiyamızda yeni tendensiyalar müəllifi kimi tanınmışdır. Tarixi dram yazmağın məsuliyyətini tam ciddiliyi ilə dərk edən yazıçı “Ağa Məhəmməd şah Qacar” dramı üçün aylarla həm İranda, həm Peterburq kitabxanasında material toplamaq, tarixi sənədləri araşdırmaqla yanaşı, işləyəcəyi materiala həm də bir rejissor duyumu ilə yanaşaraq, beşpərdəlik əsərə aktrisaların yoxluğu üzündən qadın personajı salmamış və nəhayət, böyük bir xanədan hakiminin güclü obrazını yaratmağa nail olmuşdur. Baş qəhrəmanı qadın olan və simvolizm ədəbi cərəyanının ilk milli nümunəsi olaraq qələmə aldığı “Pəri Cadu” əsərini isə öz vətənində müxtəlif zamanların, müxtəlif ittihamların hədəfi olsa da, Avropa dramaturgiyasının şərq simvolika sistemi ilə sintezi kimi dünya ədəbiyyatının ən uğurlu fəlsəfi dramlarından hesab etmək olar. Əbdürrəhim bəyin rejissorluq qabiliyyəti və səriştəsi səhnə sənəti sahəsində onu virtuoz sənətkara çevirmiş, milli teatr tarixmizin bilicisi, tədqiqatçısı kimi də yetişməsinə imkan yaratmışdır. “Əgər Mirzə Fətəli Axundov ruhaniliklə amansız mübarizə edirdisə, onun davamçıları din məsələlərində ehtiyatlı tərpənirdilər. Mirzə Fətəli mollalarla mübarizə edə bilərdi, çünki onun rəsmi vəzifəsindən, çiyinlərindəki parıldayan epoletlərdən ibarət möhkəm arxası var idi. Axundov zamanında sadə bir polis belə böyük bir vəzifə sahibi hesab edilirdi; canişin dəftərxanasının mütərcimi isə Qafqazın müstəmləkəyə çevrilməsində canişinin sağ əli sayılırdı; odur ki, o, arxayın öz işini görərək şəxsi həyatı üçün nigaran olmaya bilərdi. 90-cı illərin gəncliyi isə bambaşqa bir vəziyyətdə idi. O, nəinki özünü, həm də teatrı xilas etməli idi” (“Azərbaycanda teatr”). Antik dövrlərdən başlamış teatrın intişar və inkişaf istiqamətlərini tədqiqata cəlb etmiş yazıçı Azərbaycan milli teatrının yetkinlik mərhələlərini əks etdirən bir sıra elmi məqalələrin, araşdırmaların müəllifidir.

Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan mədəniyyətinin simasıdır. Zaman ötdükcə bizə bəzən müəmmalı, bəzən mübahisəli görünə bilən həyati məsələlər yenilməz bir həqiqətin qarşısında geri çəkilir: Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan xalqının rifahını, Azərbaycan mədəniyyətinin inkişafını bütöv bir ömrün mənasına çevirmiş azərbaycanlıdır.

***Güldəniz QOCAYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

● Pyes

# “Pəri cadu”

**Əbdürrəhim bəy Haqverdiyev “Sehrli pəri” və ya “Pəri cadu” faciə pyesini 1901-ci ildə, Şuşadan Bakıya qayıtdığı zaman bitirmişdir. Əsər Tiflis, İrəvan, Naxçıvan və digər şəhərlərdə səhnəyə qoyulmuşdur. 1924-cü ildə Mirseyfəddin Kirmanşahlı tərəfindən səhnələşdirilmiş, Bakıda Azərbaycan Dövlət Akademik Dram Teatrında uğurla oynanılmışdır.**




Ədəbiyyatşünas Əziz Şərifin sözlərinə görə, “Pəri cadu” dramasında Haqverdiyev insanın şəxsi xoşbəxtliyini sorğulamışdır. Teatr mütəxəssisi Cəfər Cəfərov qeyd edir ki, “Pəri cadu” pyesi onun canlılığı və doğruluğu üçün dəyərlidir.Tədqiqatçının sözlərinə görə, əsərdə N.Nərimanovun “Şamdanbəy”, Nəcəf bəy Vəzirovun “Yağışdan çıxıb yağmura düşdük”, M.F.Axundzadənin “Hacı Qara” əsərləri kimi, Haqverdiyev pul mübadiləsi, mülkiyyət ideyalarını ortaya qoyur və onların bu faciəli nəticələrini aydın şəkildə nümayiş etdirir. Cəfərovun sözlərinə görə, “Pəri cadu” pyesinin tərzi və forması Azərbaycan səhnəsinin tarixində tamamilə yeni bir fenomen idi.

Tamaşada Xeyir (Mələk) və Şərin (İblis) daimi mübarizəsindən bəhs olunur. Əsərin qəhrəmanı Pəri ərindən və bütün kişi tayfasından qisas almaq üçün İblislə müqavilə bağlayaraq füsunkar bir Pəridən qisasçı Pəri caduya çevrilir. Qurban obrazı var-dövlət, şöhrət, şöhvət hərisliyinin insanı hara sürüklədiyini göstərir. Əsərdə iki cəbhə açıq-aydın görünür. Mələk tərəfdə Səlimə, Rəhim, Çoban, İblis tərəfdə isə Şamama cadu, Pəri, Hafizə və əcinnələr əsas obrazlar kimi verilir. Əsərdə rəmzi şərtiliklərdən istifadə olunub. Bütün səhnə İblisin toxuduğu hörümçək toru ilə əhatə olunub. Tamaşaya Z.Freydin nəzəriyyəsi ilə yanaşılıb. Tamaşaçılar bu əsərdə həm çox faciəli, həm də komik səhnələrin şahidi olur, eyni zamanda heyrətamiz təntənə yaşayır. Ə.Haqverdiyevin “Pəri Cadu” mistik faciəsi çox ciddi insani problemlərin kontekstində həll olunub. Tamaşada üz-üzə dayanan xeyirxah və şər qüvvələr məslək və əqidə uğrunda mübarizə aparırlar. Ani hissə qapılmanın nə qədər yanlış olduğu, var-dövlətə uyub öz doğma balasından keçən Qurban kimilərə təəssüf və kədər hissi doğurur. Əcinnələr arasında öz insani duyğularını qoruya bilməsə də, sonradan şüuri oyanma zamanı Qurban İblis xislətliləri məhv etməyi seçir və bu yolda onları yox edir. Lakin buraxdığı səhvlər və etdiyi günahlar onun özü üçün də dərin uçurumlar yaradır.

Beləliklə, mövzusu və süjeti xalq yaradıcılığından alınmış “Pəri cadu” pyesində əsasən ailə-məişət məsələlərindən söhbət açılır. Real ailə münasibətlərinin, məişət səhnələrinin üstünlük təşkil etdiyi bu əsərdə simvolizm təsirləri, xəyali surətlər, səhnələr də vardır. Ədib özü deyirdi ki, əsəri simvolizmin təsirilə yazmışdır. “Pəri cadu”nun ideyası belədir: hər kəsin öz əlinin əməyi onun müqəddəratını təyin edir. İnsan taleyini kənarda deyil, öz-özündə axtarmalıdır.

***“Azərbaycan”***

● Dram əsəri

# “Ağa Məhəmməd şah Qacar”

**Ə.Haqverdiyev 1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyası üzrə nümayəndə seçilir və Peterburqda qalır. “Ağa Məhəmməd şah Qacar” faciəsini yazmaq üçün dövlət kitabxanasında çalışmağa başlayır. 1907-ci ildə yazıçı həmin faciəyə aid əlavə məlumat toplamaq üçün İrana səyahət edir. Faciə yazılır və ilk dəfə 1907-ci ildə Bakıda səhnəyə qoyulur. Ondan sonra da pyes böyük müvəffəqiyyətlə uzun zaman səhnədə oynanılır. “Ağa Məhəmməd şah Qacar” ədəbiyyat tariximizdə Nəriman Nərimanovun “Nadir şah”ından (1898) sonra ikinci tarixi faciə idi. N.Nərimanov da, Ə.Haqverdiyev də yaradıcılıqlarında realist M.F.Axundzadə ədəbi məktəbinin görkəmli davamçıları idilər.**



Ə.Haqverdiyev tarixi həqiqətlərə sadiq qalaraq, faciədə İranın qəddar şahı olan Ağa Məhəmməd şah Qacarın istilaçı siyasətini, Tiflis və Qarabağa hücumunu təsvir etmişdir. 1907-ci ildə və ondan sonra uzun zaman böyük müvəffəqiyyətlə səhnədə nümayiş etdirilən faciənin müasir ruhunu gücləndirən əsas səbəblərdən biri də Qacar simasında işğalçı müharibənin ifşası idi. Pyesin tamaşaya qoyulduğu illər İranda inqilabın yüksəldiyi, irticanın quduzlaşdığı dövr idi. Pyesdə müəllif tək bir müstəbidi ifşa etməklə kifayətlənməmiş, ümumiyyətlə, Şərqin özbaşınalığa və zorakılığa əsaslanan idarə üsulunu və onun törətdiyi vəhşilikləri tənqid etmişdir.

Bütün yaradıcılığı boyu realist olan Haqverdiyev qəhrəmanın faciəsini bəhs etdiyi dövrün ictimai münasibətləri və tarixi şəraiti ilə əlaqələndirərək, Qacarın fəaliyyətini və ölümünü tarixi bir zərurət kimi şərh etmişdir. Ağa Məhəmməd şahın Nadirin qardaşı oğlu Ədil şah tərəfindən əsir edilərək aparılması, hələ kiçik ikən atasının onun gözləri qarşısında öldürülməsi, İranı vahid dövlət şəklində birləşdirmək siyasəti yolunda rastlaşdığı çətinliklər, doğma qardaşı Cəfərqulu xanı öldürüb, bir insan kimi vicdan əzabı çəkməsi və nəhayət, əhalinin nifrəti Qacarı faciəvi qəhrəman vəziyyətinə salan əsas şərtlərdəndir. O həm İranın acınacaqlı halına yanan ağıllı bir şah, həm də qaniçən, zülmü ərşə yüksələn bir zalımdır. Ağa Məhəmməd şah hələ düşmən əlində əsir olarkən vaxtının çoxunu mütaliəyə sərf edib, dövlət işləri ilə maraqlanır, İranın gələcəyi haqqında düşünür. İranı “yaralı bədən”, özünü də “həkim” sayır. Hakimiyyəti ələ aldıqdan sonra bütün biliyindən bacarıqla istifadə edir. Ağa Məhəmməd şah elə bir hakimiyyət yaratmaq istəyir ki, əhalinin məhəbbətini qazansın.

O, bu işdə keçmiş İran şahlarının iş təcrübəsindən istifadə edir, onların buraxdığı səhvləri təkrar etməməyə çalışır. Qacar həm də bacarıqlı sərkərdə, dövlət işlərini yaxşı bilən bir diplomatdır. O, İranda hakimiyyət sürmüş bütün padşahların, cəsur sərkərdələrin müsbət və mənfi cəhətlərini öyrənmiş, keçmiş müharibələrdən dərs almışdır. Buna görə də qüvvətli düşmən qarşısında özünü itirmir, dərhal tədbirə əl atır.

Əsərdə Tiflis və Şuşa əhalisinin istilaya və istilaçılara qarşı fəal mübarizəsinə və möhkəmliyinə, xalqın birlik əzminə məhəbbət vardır. Faciədə İran tarixinin on səkkiz illik (1779-1797) keşməkeşli bir dövrü əhatə olunmuş və pyes gərgin dramatik ziddiyyətlər üzərində qurulmuşdur. Oxucu bir-birini təqib edən mübarizələr, toqquşmalar və çarpışmalarda qüvvətli insan xarakterləri ilə tanış olur. Ədib Qacarla əlaqədar olan münaqişələri böyük bacarıqla müxtəlif yerlərdə (Mazandaran, Tiflis, Xorasan, Şuşa) inkişaf etdirir və hadisələri məharətlə bir-birinə bağlayır.

Müəllifin başqa dram əsərlərindən fərqli olaraq, “Ağa Məhəmməd şah Qacar” pyesi nisbətən təmtəraqlı dildə yazılmışdır. Pyesdə ədib bədii dil üçün çox zəruri olan məcazlardan, hikmətli sözlərdən, idiomatik ifadələrdən, xalq məsəllərindən yerli-yerində istifadə etmişdir, Qacarın dili xüsusilə zəngindir.

Milliyyətcə azərbaycanlı olan, İranda şahlıqları yüz otuz il davam edən qacarilər sülaləsinin banisi Məhəmməd Qacar obrazını ədəbiyyatımıza ilk dəfə Əbdürrəhim bəy gətirib. O, “Ağa Məhəmməd şah Qacar” faciəsində təkcə əsərin qəhrəmanının deyil, eyni zamanda tarixi şəxsiyyətlər olmuş Cəfərqulu xanın, Əliqulu xanın, Mürtəzaqulu xanın, Mustafa xanın, Rzaqulu xanın, Əli xanın, vəzir Hacı İbrahim xanın, II İraklinin, Tavad Keyxosrov Avelianinin zəngin bədii səciyyəli xarakterlərini təsvir etmişdir. Faciənin ən dolğun obrazları Qacar və İraklidir. Dramaturq həmin surətlərin təsvirində faciə janrının psixoloji-fəlsəfi, psixoloji-dramatik xüsusiyyətlərindən yüksək sənətkarlıqla bəhrələnə bilmişdir. Belə bədii təsvirdə tirançılıq ideyaları, vətən və vətənpərvərlik anlayışları, zəka və güc, vicdan və əxlaq təsəvvürlərinin dramaturji təqdimi daha bədii möhtəşəmliklə təcəssümünü tapıb.

***“Azərbaycan”***

● Hekayə

# *Şəbih*

*“Ey dad Şimr əlindən*
*Fəryad Şimr əlindən!*
*Köpək götürdü qaçdı*
*Bir cad Şimr əlindən”.*

Məhərrəm ayının iyirmisi və ya iyirmi İkisi idi, xəyalımdan çıxıb. Oxucuların da əhvalına təfavüt eləməz... Nahardan sonra çıxıb özümü yelə verirdim. Xəstəxananın yanından bir şəxs çıxdı. Üzü sarıqlı, qoltuqlarında İki çəlik, qarğa kimi hoppana-hoppana mənə tərəf gəlirdi. Yaxınlaşanda Ağayi Füzulüzzakirini tanıdım ki, qabaq mənimlə aşna idi və neçə dəfə səyahətdə bizim üçün öz segahları ilə, şurları ilə, xüsusən, bayatı-qacarları ilə ləzzəti-ruhani veribdir.

- Ağa, olmasın azar, bu nə halətdir sizdə görürəm?

Cavab verib dedi:

- Ayaq üstündə dura bilmirəm. Keyfiyyətim uzundur. Məni öz mənzilinə apar, orada söhbət edərik.

Ağanı faytona mindirib gətirdim evə, dedim samovar hazır etsinlər.

Özümüz keçdik otağa. Ağa buyurdu ki, samovar yaxşı şeydir, amma mümkün olsa idi bir az başqa boğaz isladan verəydin, bəd olmazdı. Ərz etdim ki, bitədarükəm, inşallah gələn dəfə düzələr.

Ağa papiros çıxardıb, yandırıb, İki yanıqlı qullab vurandan sonra bir ah çəkib dedi:

- Evim yıxıldı. Bu il mədaxildən düşdüm, yaxşı qazancım olacaq idi, Allah vermədi. Yəqin məsləhət belə imiş!

Dedim:

- Bunlar hamısı ötüşər, insana cansağlığı lazımdır. Yaxın əyləş, söhbətini başla!

Ağa özünü yaxına verib bir öskürdü, sonra başladı hekayəti:

- Ərz olsun sizin xidməti-şərifinizə, bu il bizim Ərdəbil şuluq olmağına binaən vaxtında özümü buraya yetirə bilmədim. Özünüzə məlumdur ki, mən də həmişə məhərrəm ayına bir ay qalmış Qafqaz məmləkətinə gəlirəm və vaxtında, oxumalı məscidləri müəyyən edirəm. Ona görə də Allah mömin qardaşlara bərəkət versin, ildə beş-on şahı qulbeçələrimə çörək pulu aparıram. Bu il məhərrəm ayına ancaq on gün qalmış Badkubəyə varid oldum. Təkyələri bir-bir gəzib, gördüm hər yerdə mərsiyəxan tutulub. Getdim Gəncəyə, olmadı. İstədim Irəvana, Naxçıvana tərəf gedim, məsləhət görmədilər; dedilər: “Gedərsən Molla Mahmud Çakərlə Şahtaxtılı oğlu o qədər vurarlar ki, bir belə də şişərsən”. Çox fikir edəndən sonra dedim: yenə Dəccalabad yaxşıdır. Oranın əhli həm mömİndirlər, həm mərsiyəxana ehtiram edirlər. Gəldim çıxdım Dəccalabada.

Məscidlərə getdim, mərsiyəxan hazır, təkyələrə getdim, həmçinin. Axtarıb bizim Molla Nəbiqulunu tapdım ki, çoxdan Dəccalabadda müqimdir. Ərbədildə arvadı ilə dalaşıb, dörd uşağı ilə qoyub gəlib. Dəccalabadda İki arvad alıb. Biri iranlı, o biri həmin yerli. Yaxşı oğlandır, allah öz pənahında saxlasın, Dəccalabadda əmələyi-movtadan hesab olunur.

Çox danışdıqdan sonra Nəbiqulu məsləhət gördü ki, onunla birləşib Dəccalabadın meydanında şəbih çıxardaq. Baxdım gördüm ki, bu da bəd deyil. On üç gün şəbih çıxartsaq, azından altı-yeddi yüz manat ələ gətirmək olar. Mən də razı oldum.

Molla Nəbiqulu məktəb uşaqlarından bir dəstə düzəltdi. Başladıq şəbihi: “Vəfati-Səkinə”, “Tiflina-Müslim”, “Ricəti-üsəra” və sair müsibətlərdən gətirirdik. Yığılan cəmiyyəti görsəydiniz, təəccüb edərdiniz ki, pul göydən yağış kimi yağırdı. Bu minvalla məhərrəmin doqquzunu başa verdik.

Onuncu günü şəbihi şəhərin ətrafında, bir böyük kəndin yaxınlığında çıxarmağa başladıq ki, kənd əhalisi də feyzyab olsun. O qədər camaat yığışmışdı ki, iynə atsaydın, yerə düşməzdi. Molla Nəbiquluya dedim ki, bu dəfə sən Cəbrayıl şəbihi olacaqsan.

Bir uca ağacın baş budağına bir yeşiyi kəndirlə möhkəm bağlayıb Molla Nəbiqulunu əyləşdirdim yeşiyin içində və tapşırdım ki, İmam şəbihini şəhadətə yetirəndə ağacın başından uca səslə “qütiləl Hüseyn” deyib qışqırarsan. Özüm də bir sarı qoyun dərisindən tikilmiş kürkü tərsinə geyib bir damın içində gizlənmişdim ki, “İmamı” şəhadətə yetirəndən sonra gəlim meydana.

Şəbih başlandı. Əgər desəm qiyamət bərpa olmuşdu, inanın. Nəinki camaat, yerlər, göylər, ağaclar... hamısı, deyə bilərəm, səs-səsə verib nəvayə gəlmişdilər... Damın içindən baxıram, gözlərimdən yaş sel kimi axır. Şühəda bir-bir gəlib şəhid oldular. Axır növbət yetişdi İmam Hüseyn şəbihinə. Bu şəbih əlində qılınc meydana girəndə camaata bir vəlvələ düşdü ki, dil nəql etməkdə acizdir. “İmam” şəbihi şəhadətə yetəndə qulağımı verdim Nəbiquluya tərəf. Dedim: İndi “qütiləl Hüseyn” səsi oradan gələndə camaatın yarısı bihuş olub özündən gedəcək.

Bir də eşitdim bir şey top kimi partladı, camaat bir-birinə qarışdı. Qorxub başımı damdan bir az eşiyə çıxartdım ki, görüm nə əhvalatdır. Gördüm yeşiyin ipi qırılıb. Molla Nəbiqulu yeşiklə bərabər ağacdan uçub, düşüb Qasım otağının üstünə. Otaq əzilib, Molla Nəbiqulu “vay öldüm” deyib zarıyır. Camaat Molla Nəbiqulunu bir evə apardılar. Bir də eşitdim: bir ağsaqqal kişi qışqırır: “Atana lənət, ay İmam təziyəsinə şuluqluq salan!”

Camaat sakit oldu. Hər kəs çəkildi öz yerinə. Növbət mənə yetişdi ki, damdan çıxıb dörd əl-ayağımın üstündə meydana gəlim. Damla meydanın arası bir əlli qədəm olardı. Damdan əynimdə tərs kürk, heyvan sifətində çıxan kimi kəndin bir sürü itləri tökülüb üstümə başladılar məni dartışdırmağa. Axır neçə nəfər əliağaclı gəlib məni itlərin ağzından qurtardılar və haraya gəlincə, itlər məni bu gördüyünüz halətə saldılar. O vaxtdan xəstəxanada yatıram. Aldığım pulların çoxusu xərc olub. İndi Allah bilir nə vaxt sağalıb vətənə qayıdacağam.

Ağa sözünü qurtardı. Qulaq asıb dedim:

- Türk məsəlidir: “Dost yolunda çovğun olar, qar olar”. Nə eybi var, İmam yoludur; İmam özü fəryadına yetər.

Ağa “Allaha pənah” deyib çay içməyə başladı.

***Əbdürrəhim bəy Haqverdiyev,***
***(Molla Nəsrəddin jurnalı, S.7, 1912)***

# Ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan Qubadlı gəncləri mükafatlandırılıb

Sumqayıt şəhərində yerləşən Qubadlı Rayon İcra Hakimiyyətinin inzibati binasında ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan tələbə adını qazanmış məzunlarla görüş keçirilib. Görüşdə rayon icra hakimiyyətinin və rayon təhsil şöbəsinin nümayəndələri, həmçinin məzunlar iştirak edib. Tədbir karantin rejiminin qaydalarına uyğun şəkildə reallaşıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə Ulu Öndər Heydər Əliyevin təhsilə göstərdiyi diqqət və qayğıdan danışılıb, bu istiqamətdə görülən işlər diqqətə çatdırılıb.

Bildirilib ki, COVID-19 pandemiyasına baxmayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişaf prinsiplərinin əsas təminatı kimi təhsil və tədrisin yeni şəraitə uyğun şəkildə təşkil olunması istiqamətində atılan addımlar öz bəhrəsini verməkdədir.



Çıxışlarda qeyd edilib ki, dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində ümumtəhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülür və ölkəmizdə gənclərə geniş imkanlar yaradılır. Prezidentin təhsilin inkişafına verdiyi önəmin nəticəsidir ki, son illərdə müasir məktəb binaları tikilir, mövcud müəssisələr üçün yeni tədris korpusları inşa olunur.

Bu gün Qubadlı rayonunda da bu işlər uğurla davam etdirilir. Rayonda 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onlardan 18-i yeni tikilib, 14-ü əsaslı təmir olunub. Eyni zamanda, 2018/2019-cu tədris ilində Abşeron rayonu "St. Sumqayıt" ərazisində yerləşən Qubadlı rayon Hal, Dəmirçilər kənd tam orta və şəhər 4 saylı tam orta məktəbləri yeni binalarda fəaliyyətə başlayıb, 2019-2020-ci tədris ilində isə Sumqayıt şəhər 12-ci mikrorayon ərazisində məcburi köçkünlər üçün tikilmiş şəhərcikdə Kavdadıq və Əliquluuşağı kənd tam orta məktəbləri üçün inşa olunan yeni bina şagird və müəllim kollektivinin istifadəsinə verilib.

Cari ildə 554 məzundan 495 nəfəri, yəni 89,3 faizi ali məktəblərə sənəd verib və onlardan 360-ı qəbul olub. Qəbul imtahanlarında iştirak edən 49 məzun 500-600 arası, 22 məzun isə 600-700 arası bal toplayıb. Rayon üzrə bu il qəbul faizi 73 faiz təşkil edib. Bütün bunlar ölkəmizdə həyata keçirilən uğurlu təhsil siyasətinin nəticəsidir.

Tədbirdə çıxış edən tələbə adını qazanan rayon məktəblərinin məzunları göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirib.

Sonda yüksək bal toplamış gənclərə mükafatlar təqdim edilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

1 aylıq
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Beynəlxalq aləm

## Alimlər koronavirus pandemiyasının "günahkarları"nı tapıb

Polşa Elmlər Akademiyasında və Varşava Universitetində alimlər hesab edirlər ki, pandemiyaya "superyayıcılar" səbəb olub.

Tədqiqatçılar eyni şəxslə təmasda olduqdan sonra koronavirusa yoluxmuş insanların sayını nəzərdən keçirmişlər. "Royal Society Open Science" jurnalında dərc olunmuş məqalədə bildirilir ki, onlar virusun reproduksiya əmsalının 2 və 4 arasında olduğunu hesablayıblar.

Bununla yanaşı, Çin, İtaliya, İspaniya, Fransa və digər ölkələrdə COVID-19 hallarının artması zamanı göstərici 11,4-ə bərabər ola bilərdi. Bu, ehtimal ki, ətrafdakılara yüksək intensivliklə virusu ötürən "superyayıcıların" yoluxdurulması ilə bağlıdır. Belə yayıcıların payı 1 faizə çatdıqda xəstələrin sayı kəskin şəkildə artır.

## Türkiyə aviasiyası İraqda 3 terrorçunu məhv edib

Türkiyə Hərbi Hava Qüvvələri İraqın şimalındakı Metin rayonunda Türkiyə hərbçilərinin yerləşdiyi bazaya hücum hazırlayan üç PKK terrorçusunu məhv edib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Terrorçuların yeri kəşfiyyat məlumatları sayəsində aşkar edilmişdir.

"İraqın Türkiyə ilə həmsərhəd rayonlarında antiterror əməliyyatları davam etdiriləcək", - deyə məlumatda vurğulanır.

## Mustafa Ədib Livan hökumətini formalaşdırmaqdan imtina etdi

Mustafa Ədib hakim koalisiya yaratmaq cəhdlərinin uğursuzluğu fonunda Livanın yeni hökumətinin formalaşdırılması mandatından imtina edib. Həsən Diyab hökuməti avqustun 10-da Beyrut limanında güclü partlayışdan sonra bərpa olunan hökumət əleyhinə aksiyaların fonunda istefa verib.

Avqustun 31-də Prezident Mişel Aun Diyabın ehtimal olunan varisinin adını açıqlayıb. Bu, Mustafa Ədib idi. Amma üç həftə davam edən müsəlman və xristian siyasi partiyalarının liderləri ilə fəal danışıqlar heç bir nəticə verməyib.

Srağagün Mustafa Ədib mandatdan imtina barədə dövlət başçısına telefonla məlumat verib və bundan sonra şənbə günü Prezident Administrasiyasına gəlib.



"Texnokratlar hökumətini yaratmaq cəhdlərim uğursuz oldu. Siyasi partiyalar mənim təşəbbüslərimə dəstək vermədilər", - deyə siyasətçi bildirib.

Sentyabrın 1-də Beyruta səfər etmiş Fransa Prezidenti Emmanuel Makronun dəstəyi də Ədibə kömək etməyib.

Prezident Mişel Aun yaranmış vəziyyətdə Livan Konstitusiyasının tələblərinə uyğun hərəkət edəcəyini bildirib.

## Ukraynada hərbi təyyarə qəzaya uğrayıb



Xarkov vilayətinin Çuquyev şəhəri yaxınlığında Ukrayna Silahlı Qüvvələrinin An-26 təyyarəsinin qəzaya uğraması nəticəsində 25 nəfər həlak olub. Bu barədə Ukraynanın Fövqəladə Hallar üzrə Dövlət Xidmətinin məlumatına istinadən "Rosbalt" agentliyi xəbər verir.

"Aerodrom dispetçerinin məlumatına görə, hava gəmisində 28 nəfər olub. Həlak olan 22 nəfərin meyitləri aşkar edilib. 2 nəfər yaralanıb və 4 nəfərin axtarışı davam edir", - deyə məlumatda bildirilir.

Təyyarə hərbi aerodromdan 2 km aralıda yerə düşüb, sonra onun göyərtəsində yanğın baş verib.

# Ermənistan ordusunda özbaşınalıq hökm sürür

*Əvvəli 1-ci səh.*

Azərbaycan buna hazırdır, amma Ermənistanda əks vəziyyətdir.

Ermənistan ordusundakı özbaşınalıq getdikcə daha geniş vüsət alır və hər halda baş verən son olaylar da qeyd edilənləri təsdiq edir. Belə ki, Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçular mülki şəxsə qarşı cinayət törətdiyi üçün istintaqa cəlb olunub. Erməni mediasının yazdığına görə, Tərtər rayonunun işğal olunmuş Kiçik Qarabəy kəndində yaşayan Artuş Avakyan Ermənistan Müdafiə Nazirliyinin "qaynar xətt"inə zəng edərək hərbi qulluqçular tərəfindən daim incidildiyini, hədə-qorxulara məruz qaldığını, eləcə də pulunun və əmlakının zorla əlindən alındığını bildirib.

Daha bir məlumata əsasən, Azərbaycanın işğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən hərbi qulluqçular arasında kütləvi dava baş verib. Nəticədə beş nəfər xəsarət alıb. Artilleriya divizionunda xidmət edən gənc əsgərlərlə müqavilə əsasında xidmətdə olan hərbçilər arasında baş verən mübahisə sonradan davaya çevrilib. Hərbi qulluqçular Hayk Martirosyan, Aram Papikyan, Narek Torosyan, Tiqran Aseryan, Artik Musoyan müxtəlif dərəcəli bədən xəsarətləri ilə tibb məntəqəsinə yerləşdiriliblər. Komandanlıq hadisəni ört-basdır etməyə çalışıb. Lakin davada xəsarət alanlardan birinin vəzifəli qohumu bu hadisədən xəbər tutduqdan sonra hərbi hissə komandiri hərbi prokurorluğa məlumat verməyə məcbur olub.

Amma insidentlər təkcə bununla bitmir. Yaşanan qanunsuzluqlar hərbçilərin özünü də cana gətirib. Hətta zabit Tsolak Xaçatryan müddətsiz aclıq aksiyası keçirir. Xaçatryan bildirib ki, hökumət onun konstitusion hüquqlarını pozur. O, illik məzuniyyətinin ödənilməyən hissəsinin kompensasiyasının nəzərdə tutulduğundan az olduğunu bildirir.

Bunlara etiraz olaraq əsgər valideynləri etiraz aksiyası keçiriblər. Onlar bildirirlər ki, Ermənistan ordusundakı korrupsiya və özbaşınalıq yüksək templə artır. Orduda problemlər dözülməz həddə çatıb. Təmas xəttində əsasən kasıb insanların övladları ölür. Əsgərlər komandirlərin və özlərindən rütbəcə yüksək olanların pis davranışları ilə üz-üzə qalırlar.

Yerli medianın yazdığına görə, Ermənistan hakimiyyəti bütün vasitələrdən istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Hərbi hissələrdə əsgərlərin valideynləri ilə əlaqə saxlaması üçün yaradılan internet otaqlarını isə məlumatların sızmasının qarşısını almaq üçün bağlayıblar. Bütün bu qadağalara baxmayaraq, sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, Ermənistan ordusunda vəziyyət təsəvvür edildiyindən də qat-qat ağırdır. Etirazçılar davamlı şəkildə hökumət əleyhinə şüarlar və bəyanatlar səsləndirir, valideynlər övladlarının ölüm səbəbinin onlara açıqlanmasını tələb edirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İrandan Azərbaycana 84 kiloqramdan çox narkotik vasitənin keçirilməsi cəhdinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini uğurla həyata keçirilir.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, Xidmət əməkdaşlarının sayıqlığı nəticəsində növbəti dəfə külli miqdarda narkotik vasitələrin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Sentyabrın 25-də DSX Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun 2-ci Şahsevən kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru üç nəfərin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib və həmin şəxslərə "Dayan" əmri verilərək havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd naryadının əmrinə tabe olmayan sərhəd pozucuları geriyə - İran ərazisinə qaçıblar.





Həmin ərazidə axtarış tədbirləri keçirilib. Axtarış tədbirlərinin nəticəsində kolluqların arasında gizlənən bir nəfər şübhəli şəxs saxlanılıb və onda dörd bağlama aşkarlanıb. Bağlamalara baxış zamanı içərisində ümumi çəkisi 84 kiloqram 660 qram narkotik vasitəyə oxşar maddələr (52 kiloqram tiryək, 32 kiloqram 650 qram heroin, 10 qram marixuana və 120 ədəd "Metadon-40" həbinə) aşkarlanıb.

Saxlanılan şəxsin 1983-cü il təvəllüdlü Elşən Vaqif oğlu Süleymanov olması və əvvəllər narkotik vasitələrin qanunsuz dövriyyəsinə görə məhkum edilməsi müəyyənləşdirilib.

Cinayətkar qrupun digər üzvlərinin müəyyənləşdirilməsi istiqamətində keçirilmiş təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində sərhədboyu ərazidə hərəkətdə olan "VAZ-2107" markalı 19-BE-007 dövlət nömrə qeydiyyat nişanlı avtonəqliyyat vasitəsi saxlanılıb.

Avtomobilin sürücüsü Beyləqan rayonunun 1-ci Şahsevən kənd sakini 1956-cı il təvəllüdlü Gəncalı Əli oğlu Orucov və sərnişinlər Yevlax rayon sakinləri 1982-ci il təvəllüdlü Faiq Fərman oğlu Məmmədov və 1969-cu il təvəllüdlü İbrahim İsrail oğlu Qorçuzadə törətdikləri cinayət əməlini etiraf edərək əraziyə narkotik vasitə götürməyə gəldiklərini bildiriblər.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

# Külli miqdarda narkotik vasitənin ölkə ərazisində qanunsuz dövriyyəsinin qarşısı alınıb

Qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına gətirilmiş külli miqdarda narkotik vasitələrin, psixotrop və güclü təsir edən maddələrin ölkə ərazisində qanunsuz dövriyyəsinin qarşısı Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində alınıb.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, Azərbaycan Respublikasının vətəndaşları Vüqar Hüseyn oğlu Hümbətovun və Elnur Telman oğlu Əliyevin satış məqsədilə qanunsuz əldə etdikləri külli miqdarda narkotik vasitələr - 19 kiloqram 736,04 qram heroin, 10 kiloqram 149,75 qram tiryək, 3 kiloqram 788,18 qram qurudulmuş marixuana, 104,44 qram metadon, psixotrop maddə - 19 kiloqram 786,10 qram metamfetamin və 75 qram güclü təsir edən maddə olan preqabalin onlardan aşkar edilərək götürülüb.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitə və psixotrop maddələrin qaçaqmalçılığı), 234.4.1-cü və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən satış məqsədilə qanunsuz olaraq külli miqdarda narkotik vasitə və psixotrop maddələri əldə etmə, saxlama, daşıma və satma) 240.3.2-ci (külli miqdarda güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi) maddələri ilə cinayət işi başlanılıb. Vüqar Hüseyn oğlu Hümbətov və Elnur Telman oğlu Əliyev təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda həmin cinayət əməllərinin digər iştirakçılarının müəyyənləşdirilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.


## B İ L D İ R İ Ş

**"Azərenerji" ASC** tərəfindən 03 sentyabr 2020-ci il tarixdə elan edilmiş **LOT 1 - Gücü 385 MVt olan "Qobu" Elektrik Stansiyasının tikinti-quraşdırma və istismara verilməsi işlərinin satın alınması, LOT 2 - Gücü 385 MVt olan "Qobu" Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası layihəsi üzrə yarımstansiyaların tikintisi, yenidən qurulması, elektrik şəbəkəsində genişlənmə və elektrik veriliş xətlərinin tikinti-quraşdırılması işlərinin satın alınması** üzrə təkliflər sorğusu üsulu ilə keçirilən tenderdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən **"BCC Group" MMC** və **"ELECTRO İNDUSTRİES" QSC** tenderin qalibləri müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatlar ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7644
Sifariş 2228
Qiyməti 40 qəpik